HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 17 (757) ■ 6 may 2015 | www.vergiler.az | Qiymәti: 40 qәp.

# Prezident İlham Əliyev: «Azərbaycan hər zaman əməkdaşlıq və qarşılıqlı anlaşma məkanı olmuşdur»

*Mayın 4-də Bakı Konqres Mərkəzində Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısının açılış sessiyası olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Asiya İnkişaf Bankının (AİB) prezidenti Takehiko Nakao tədbirdə iştirak ediblər.*




Açılış sessiyasında nitq söyləyən Prezident İlham Əliyev bildirib ki, Azərbaycanla Asiya İnkişaf Bankı arasında sıx əməkdaşlıq mövcuddur. 1999-cu ildən bu təşkilata üzv olan ölkəmizdə mühüm layihələr həyata keçirilib. Asiya İnkişaf Bankı iqtisadiyyatımızın müasirləşməsi, əhalimizin yaşayış standartlarının yaxşılaşdırılmasında xalqımızın səylərinin davamlı dəstəklənməsində fəal iştirak edib. Bu günədək AİB tərəfindən Azərbaycana 1.5 milyard dollar məbləğində vəsait ayrılıb və həmin vəsait davamlı iqtisadi inkişafımıza xidmət edib.

Azərbaycan Prezidenti ölkəmizin regionda mühüm coğrafi yerinə diqqət çəkib, Şərq və Qərb, Asiya və Avropa arasında yerləşdiyinə görə ölkəmizdə əsrlər boyu multikultural cəmiyyətin mövcud olduğunu qeyd edib: «Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, Azərbaycan hər zaman əməkdaşlıq və qarşılıqlı anlaşma məkanı olmuşdur. Biz tariximizlə, multikultural tariximizlə fəxr edirik. Biz Azərbaycanın müasir və tolerant ölkə kimi inkişafına qəti olaraq sadiqik ki, burada bütün millətlərin və dinlərin nümayəndələri sülh şəraitində və ləyaqətli şəkildə yaşasın.Bir neçə il öncə yaradılmış Beynəlxalq Multikulturalizm Mərkəzi bizim daha da təhlükəsiz dünya, insanların özlərini daha qorunmuş hiss etdikləri, irqi ayrı-seçkilik, dini nifrət olmayan dünya naminə müsbət meyillərin inkişafına verilən töhfəmizdir».

Respublikamızın ötən illər ərzində keçdiyi inkişaf yolu barədə ətraflı məlumat verən dövlətimizin başçısı həyata keçirilən siyasi və iqtisadi islahatların əhəmiyyətindən danışıb. Bildirib ki, ölkəmizdə demokratik islahatlar dönməzdir və davamlı xarakter daşıyır: «Azərbaycan özünün demokratik inkişafına sadiqdir. Azərbaycanda bütün azadlıqlar tam təmin edilir - siyasi fəaliyyət azadlığı, media azadlığı, toplaşma azadlığı, dini azadlıqlar. Bizdə azad internet var. İnternet istifadəçilərinin sayı gündən-günə artır və bu gün bu rəqəm 70 faizə çatır. Hökumətimiz fəal şəkildə müasir texnologiyalar, İKT sahəsinə sərmayə qoyur. Biz bu gün genişzolaqlı interneti Azərbaycanın hər bir kəndinə çəkirik. Bu, bizim niyyətlərimizin göstəricisidir. Biz aydın şəkildə dərk etdik ki, siyasi transformasiya, müasir idarəçilik sistemi olmasa uğura nail ola bilmərik. Bu səbəbdən siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılmışdır».

Dövlətimizin başçısı 1994-cü ildən Azərbaycanda yeni enerji strategiyasının başlandığını və xarici şirkətlərin iştirakı ilə regionda çox fəal və geniş əməkdaşlığın yaarandığını vurğulayıb. Azərbaycan öz enerji strategiyasını həyata keçirməklə ilk dəfə Xəzər dənizini Qara və Aralıq dənizləri ilə xam neft kəmərləri vasitəsilə birləşdirib, yeni enerji layihələrinin təşəbbüskarı kimi fəal rol oynayır:» Azərbaycanın regionda rolu çox vacibdir. Çünki biz bu prosesdə aparıcı ölkə idik. Biz «Cənub» qaz dəhlizinin tikintisinin təşəbbüskarı olduq. Bu gün o, regionun və Avropanın 10 dövlətini birləşdirir, inşaat işləri artıq başlamışdır. Bu, hazırda Avropada reallaşdırılan ən iri infrastruktur layihəsidir. «Cənub» qaz dəhlizinin inşası və bizim qaz yataqlarımızın istismarını nəzərdə tutan bu layihənin dəyəri 45 milyard dollara bərabərdir. Azərbaycan bu prosesdə aparıcı qüvvədir. Bu gün dünyanın müxtəlif yerlərində istehlakçıların Azərbaycan qazına ehtiyacı var. Yəni, bu gün, əlbəttə, enerji siyasəti ölkəmizin geosiyasi əhəmiyyətini və imkanlarını artırır. Biz neft ixracından mənfəət əldə etməyə başlamışıq. Üç-dörd ildən sonra «Cənub» qaz dəhlizi layihəsi başa çatanda Azərbaycan bir neçə onillik, mən deyərdim, yüz il ərzində region və Avropa istehlakçıları üçün ən mühüm təbii qaz təminatçısından biri olacaq».

Azərbaycan Prezidenti neft və qaz layihələri ilə bərabər qeyri-neft sektorunda uğurla həyata keçirilən layihələrin əhəmiyyətinə də diqqət çəkib, neft və qazdan asılılığın azaldılması, şaxələndirmə siyasətinin aparıldığını bildirib. Qeyd edib ki, ümumi daxili məhsulumuzun strukturunda qeyri-neft sektorunun payı 70 faizə çatıb: «Əsas diqqət iqtisadiyyatımızın qeyri-neft sektoruna yönəldilib. Ümumi daxili məhsul 3 dəfə artmışdır, xarici borcumuz olduqca aşağı səviyyədədir, ümumi daxili məhsulun təqribən 10 faizini təşkil edir. Biz milyardlarla xarici sərmayə cəlb edə bilmişik, müstəqillik illərində bu rəqəm 200 milyard dollara bərabər olmuşdur. Ötən il ərzində bu rəqəm 27 milyard dollar təşkil etmişdir. Biz görürük ki, bu rəqəm artmaqdadır və ən vacib məsələ ondan ibarətdir ki, bu vəsaitin 70 faizi yerli sərmayədir. Bununla belə, Azərbaycan xarici sərmayələr üçün çox cəlbedici ölkə olaraq qalır. Biz 9 milyondan artıq əhaliyə malik olduğumuz ölkədə 1 milyondan artıq iş yeri yaratmağa müvəffəq olmuşuq. Bunun nəticəsində işsizlik çox aşağı səviyyəyə, təqribən 5 faizə enmişdir. Bizim ən böyük nailiyyətimiz isə düşünürəm ki, yoxsulluğun aradan qaldırılması ilə bağlıdır. On-on beş il öncə bu göstərici 50 faizə bərabər idisə, bu gün həmin rəqəm 5 faizdir. Bu, onu nümayiş etdirir ki, Holland sindromuna, iqtisadiyyatın birtərəfli inkişafına düçar olmadıq. Biz qara qızılı insan kapitalına çevirə bildik».

Çıxışında Ermənistanın işğalçılıq əməllərinə diqqətçəkən Prezident İlham Əliyev Azərbaycanın ərazisinin 20 faizə yaxın hissəsinin işğal altında qaldığını, bir milyon qaçqın və məcburi köçkünün Ermənistanın təcavüzündən əziyyət çəkdiyini xatırladıb. Dövlətimizin başçısı BMT Təhlükəsizlik Şurasının dörd qətnamə qəbul etməsinə baxmayaraq, 20 ildən artıqdır ki, bu sənədlərin icra olunmadığını diqqətə çatdırıb: «Bu, ən böyük ədalətsizlik və beynəlxalq hüququn pozulmasıdır. Bu, bir daha nümayiş etdirir ki, beynəlxalq hüquq siyasi preferensiyalara malik olan və dünyada beynəlxalq münasibətlərə təsir edən dövlətlər tərəfindən selektiv şəkildə tətbiq olunur».

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin adından Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısının iştirakçılarının şərəfinə ziyafət verilib.

## Dövlət başçısı yeni obyektlərin açılışında iştirak edib

*Aprelin 29-da Bakı Konqres Mərkəzinin açılışı olub. Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak ediblər.*

Heydər Əliyev Mərkəzinin yaxınlığında yüksək zövqlə inşa olunan Mərkəzin tikintisinə 2014-cü ilin fevralında başlanılıb. Mərkəzin ümumi sahəsi 6,2 hektar, tikintialtı sahəsi isə 46,6 min kvadratmetrdir. Ətrafda geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb. Bina bütün zəruri infrastrukturla təmin olunub.

Binanın foyesində 405 kvadratmetrlik monitor quraşdırılıb. Bu, dünyada qapalı məkanda quraşdırılan ən böyük və ən çox pikselli monitordur. Ümumilikdə isə binada müxtəlif ölçülü 50-dən artıq monitor quraşdırılıb. Mərkəzdə ümumi tutumu 2500 nəfərdən çox olan 17 konfrans zalı yaradılıb. Bina bütün zəruri kommunikasiya, o cümlədən havalandırma sistemləri ilə təchiz olunub. Burada restoran, inzibati və digər otaqlar da var. Mərkəzdə canlı yayım aparmaq üçün də müasir şərait yaradılıb. Burada qonaqlara eskalatorlar və 16 lift xidmət göstərəcək.

Bildirilib ki, Bakı Konqres Mərkəzinin auditoriya zalı 3500 yerlikdir. Burada müasir texnologiyanın ən son yeniliklərinin tətbiq olunduğu avadanlıq quraşdırılıb. Zalın akustika sistemi dünyanın aparıcı şirkətlərinin məhsuludur. Buranın işıqlandırılmasında müasir texnologiyadan istifadə edilib.

Mayın 5-də Bakıda «İnturist» otelinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva otelin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsib. Prezident İlham Əliyevə otel barədə ətraflı məlumat verilib. Bildirilib ki, beşulduzlu bu otel «Absheron Hotel Group»a aiddir. Yeni otel vaxtilə Bakıdakı «İnturist» mehmanxanasının arxitektura üslubunda inşa edilib. Bu mehmanxana nəinki Azərbaycanda, eləcə də keçmiş SSRİ-də çox məşhur idi. Yeni otel köhnə «İnturist» barədə xatirələri yaşatmaqla bərabər, nadir memarlıq quruluşu ilə diqqəti cəlb edir. Qeyd edilib ki, beşmərtəbəli binada 150 standart və suit nömrə, həmçinin SPA salonu, kitabxana, iclas zalı və restoran var.

Oteldə yaradılmış şəraitlə tanış olan Prezident İlham Əliyev sonra müəssisənin kollektivi ilə görüşüb söhbət edib.

## Azərbaycan-Yaponiya əlaqələri yüksək səviyyədədir

*Azərbaycan Prezidenti İlham Əliyev mayın 4-də Yaponiya Baş nazirinin müavini, maliyyə naziri Taro Asonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*



Görüşdə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının növbəti illik toplantısının Bakıda keçirilməsinin əhəmiyyətindən danışılıb, ölkəmizdə aparılan uğurlu siyasət nəticəsində böyük iqtisadi inkişafa nail olunduğu vurğulanıb. Söhbət zamanı birinci Avropa Oyunlarının ilk dəfə Azərbaycanda təşkil olunmasının önəmi qeyd edilib, respublikamızda mühüm beynəlxalq tədbirlərin keçirilməsi üçün yaradılan müasir şərait yüksək dəyərləndirilib. Azərbaycan-Yaponiya ikitərəfli münasibətlərinin yüksək səviyyəsindən məmnunluq ifadə olunub, ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, informasiya-kommunikasiya texnologiyaları və s. ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Qarşılıqlı əməkdaşlıq müzakirə olunub

*Dövlətimizin başçısı mayın 1-də Beynəlxalq Valyuta Fondunun icraçı direktorunun müavini Mitsuhiro Furusavanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

Görüşdə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısının Bakıda keçirilməsinin əhəmiyyəti vurğulanıb, tədbirə hazırlığın yüksək səviyyədə təşkil edildiyi bildirilib. Azərbaycanın mötəbər beynəlxalq tədbirlərin keçirilməsi üçün əlverişli məkan və bu istiqamətdə yaxşı təcrübəyə malik olduğu məmnunluqla qeyd edilib.

Söhbət zamanı Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında uzunmüddətli uğurlu əməkdaşlığın önəmi vurğulanıb və bu əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev mayın 3-də Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti xanım Laura Takın başçılıq etdiyi nümayəndə heyətini də qəbul edib. Görüşdə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının növbəti toplantısının Bakıda keçirilməsinin əhəmiyyəti vurğulanıb, tədbirin təşkilati işlərinin yüksək səviyyədə aparıldığı qeyd olunub.

Söhbət zamanı Azərbaycan ilə Dünya Bankı arasında yol-nəqliyyat, su təchizatı və kanalizasiya, bərk tullantıların idarə olunması və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib. Dünya Bankı ilə «Azərişıq» ASC arasında artıq əməkdaşlığa başlanıldığı və bu istiqamətdə işlərin aparıldığı qeyd edilib. Ölkəmizdə həyata keçirilən bir sıra layihələr, o cümlədən «ASAN xidmət» sahəsində görülən tədbirlər də yüksək qiymətləndirilib, Dünya Bankının «ASAN xidmət» ilə əməkdaşlığının genişləndirilməsi istiqamətində işlərin aparıldığı vurğulanıb.

2 | Elektron xidmətlərin tətbiqində yenilik
3 | Qeyri-neft sektorunun inkişafı ilə bağlı tədbirlər davam etdirilir
4 | Azərbaycanın vergi sistemi Avropa standartlarına uyğunlaşdırılır
5 | Torpaq vergisi üzrə daxilolmalar artıb

# Qanun pozuntularına qarşı nəzarət tədbirləri gücləndirilir

Bu ilin aprel ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 5805 vergi ödəyicisində qanunvericiliyin pozulması halları müəyyən edilmişdir. 924 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 269 vergi ödəyicisinin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 608 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu aşkarlanmışdır. 269 vergi ödəyicisi tərəfindən 390 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 210 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 71 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış mallar olduğu müəyyən edilmişdir. Aşkar olunmuş nöqsanlarla bağlı müvafiq tədbirlər görülmüşdür.

# Yeni elektron informasiya sistemi yaradılır

*Prezident İlham Əliyev yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında fərman imzalayıb və bununla əlaqədar aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.*




«Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemindən istifadə qaydaları»nda informasiya sisteminin fəaliyyətinin əsas prinsipləri kimi çoxsaylı istifadəçilərin bu sistemdən eyni zamanda istifadə etməsinin mümkünlüyü, informasiya mübadiləsində bir-biri ilə uzlaşa bilən texnologiyaların, formatların, protokolların və proqram-texniki vasitələrin tətbiq edilməsi, sistemin iştirakçıları tərəfindən yalnız sertifikatlaşdırılmış proqram təminatından və proqram-texniki vasitələrdən istifadə olunması, sistemə daxil edilən məlumatların dəqiqliyinin, tamlığının və etibarlılığının təmin edilməsi, informasiya təhlükəsizliyi təşkil edir.

Qaydalara görə, informasiya sisteminin operatoru informasiya sisteminə aid olan proqram-texniki vasitələrin fasiləsiz işini təmin edəcək, sistemə aid proqram-aparat vasitələrinin monitorinqini aparacaq, yaranan xətaları qeydə alacaq və operativ həll edəcək, sistemin administratorunun təklifləri əsasında proqram təminatının təkmilləşdirilməsini həyata keçirəcək, təsisçi-administratora informasiya sistemi istifadəçiləri tərəfindən sistemdə işin aparılmasını müşahidə etmək üçün texniki şərait yaradacaq, sistemə aid avadanlığın yenilənməsini təmin edəcək, istifadəçilər üçün təlim keçilməsində iştirak edəcək.

Yerli icra hakimiyyəti orqanlarında informasiya sisteminin fəaliyyətini bu qaydalarda sistemi müəyyən olunmuş tələblərə uyğun təşkil etmək, onun istifadəsinə və təhlükəsizliyinin qorunmasına nəzarət etmək isə məsul şəxslərin əsas funksiyalarına aid edilir. İnformasiya sisteminin məsul şəxsləri istifadəçiləri müəyyənləşdirməklə onlar barədə məlumatları müntəzəm yeniləyərək Prezident Administrasiyasına təqdim edəcək, yerli icra hakimiyyəti orqanında istifadəçi sayının artırılması, həmin saya uyğun texniki vasitələrin yerləşdirilməsi və onların yerinin dəyişdirilməsi ilə bağlı təsisçi-administratora müraciət edəcək, istifadəçilərin fəaliyyətinə nəzarət edəcək, onlar üçün təlim keçilməsinə şərait yaradacaq, tələb olunan texniki vasitələrin alınmasını və lazımi iş şəraitinin yaradılmasını təmin edəcək.

**AYTƏN**

# «Fiziki şəxslərin əmlak və torpaq vergiləri» mövzusunda seminar

Vergi Məcəlləsində edilmiş dəyişikliklə 1 yanvar 2015-ci il tarixdən qüvvəyə minmiş əmlak vergisinin məqsədləri üçün Bakı şəhərində fiziki şəxslərin xüsusi mülkiyyətində olan binaların sahəsinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissənin) hər kvadratmetrinə görə 0,4 manat dərəcəsi (həmin dərəcəyə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi 0,7-dən aşağı və 1.5-dən yuxarı olmayan əmlaklar aid edilməklə) tətbiq olunur (Maddə 198.1.1).

Vergi Məcəlləsinin 206.3-cü maddəsinə əsasən, kənd təsərrüfatı təyinatlı torpaqlar istisna olmaqla, Bakı şəhərində yerləşən xüsusi təyinatlı torpaqların sahəsi 10.000 $m^2$-dək olduqda onların sahəsinin hər 100 $m^2$-nə görə 10 manat, torpaq sahəsi 10.000 $m^2$-dən çox olduqda çox olan hissənin hər 100 $m^2$-nə 20 manat, yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqların 10.000 $m^2$ -dək olan hissəsinin hər 100 $m^2$-nə görə 0,6 manat, 10.000 $m^2$-dən çox olan hissəsinin hər 100 $m^2$-nə görə 1,2 manat torpaq vergisinin ödənilməsi müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 6 aprel tarixli qərarı ilə «Azərbaycan Respublikası Vergi Məcəlləsinin 198.1.1-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxslərin əmlak vergisi məqsədləri üçün Bakı şəhərində yerləşən binalara tətbiq edilən əmsallar» təsdiq edilmişdir.

Aprelin 29-da fiziki şəxslərin əmlak və torpaq vergilərinin hesablanması ilə bağlı normativ-hüquqi sənədlər bələdiyyələrə göndərilmiş və onların praktiki tətbiqinin izahına həsr olunmuş seminar-məşğələ keçirilmişdir. Tədbirdə 43 bələdiyyəni təmsil edən 76 nümayəndə iştirak etmişdir. Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Vergi ödəyicilərinə xidmət və uçot idarəsinin inzibati binasında keçirilən seminar-məşğələdə vergilər nazirinin əmri ilə təsdiq edilmiş «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq subyektlərinin uçota alınması ilə bağlı Metodiki Vəsait», «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu ilə bağlı Metodiki Vəsait»lər və onların mənimsənilməsi ilə bağlı bələdiyyələrdə görülən işlər barədə qısa məlumat verilmişdir. Seminar-məşğələ zamanı qanunvericilikdə edilmiş dəyişikliklər nəzərə alınmaqla fiziki şəxslərin əmlak və torpaq vergilərinin hesablanması, ödənilməsi qaydaları, bu vergilərin ödəyicilərinin uçotu, verginin ödənilməsində tətbiq olunmuş vergi güzəştləri barədə iştirakçılara interaktiv formada izahlar verilmişdir. Bələdiyyə nümayəndələrinə vergilərin hesablanması əyani olaraq misallar üzərində nümayiş etdirilmiş, çoxsaylı suallar cavablandırılmışdır.

Nəsimi, Mərdəkan, Keşlə, Sabunçu, Əhmədli, Xətai, Sahil, Binəqədi, Nizami bələdiyyələrinin nümayəndələri çıxış edərək keçirilən tədbirin əhəmiyyətini yüksək qiymətləndirmiş və göstərilən köməkliyə görə vergi orqanlarına minnətdarlıqlarını bildirmişlər.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycanın dövlət qurumlarının «Elektron hökumət» portalı üzərindən təqdim etdiyi elektron xidmətlərin sayı **417-yə** çatıb.
- 2014-cü ildə Azərbaycana investisiya qoyuluşunun həcmi **27,7 milyard dollar** olub ki, onun da **11,5 milyard dollarını** xarici investisiyalar təşkil edib.
- Son 10 ildə Azərbaycan **150-yə yaxın** ölkə ilə ticarət əlaqələri qurub. Bu dövr ərzində xarici ticarət dövriyyəsi **4,3 dəfə**, ixrac **6 dəfə**, o cümlədən qeyri-neft ixracı **2,6 dəfə** artıb.

# Beynəlxalq Vergi İnformasiya Platforması

## Administrasiyalar

*Vergilər Nazirliyi ilə həm beynəlxalq və regional təşkilatlar, həm də xarici ölkələrin vergi administrasiyaları arasında yaradılmış qarşılıqlı əməkdaşlıq əlaqələri birgə layihələrin həyata keçirilməsi, zəruri məlumatların qarşılıqlı ötürülməsi, ikitərəfli səfərlərin təşkili, təcrübə mübadiləsinin aparılması və digər sahələri əhatə edir. Bu sahələrdə baş verən yeniliklər və görülən işlər barədə məlumatların vahid bazada toplanması və interaktiv şəbəkə sistemi vasitəsilə ümumi istifadəyə verilməsi mühüm əhəmiyyət kəsb edir.*
*Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi tərəfindən hazırlanmış Beynəlxalq Vergi İnformasiya Platformasında yaradılmış ayrıca bölmə - «Administrasiyalar» bu məqsədə xidmət edir.*




### Xarici ölkələrin vergi administrasiyaları

Platformanın «Administrasiyalar» bölməsində seçilən vergi administrasiyasının yaranma tarixi, baş ofisi və rəhbəri barədə məlumat yerləşdirilmişdir. Bu bölmədə administrasiyanın əsas fəaliyyət istiqamətləri, təşkilati-hüquqi forması (müstəqil qurum və ya Maliyyə Nazirliyinin tərkibində olması), ünvan və telefonları əks olunub. Bölmənin sonunda Azərbaycan Respublikası ilə imzalanmış sazişlər və həmin sazişlərin elektron variantı, Vergilər Nazirliyinin nümayəndələrinin həmin ölkələrə səfərləri barədə məlumatlar verilir.

Bölmədə diqqəti cəlb edən məqamlardan biri də vergi administrasiyalarının hazırda qüvvədə olan strukturunun vizual görüntülərinin yerləşdirilməsidir. Bu görüntülər hər bir administrasiyanın hansı fəaliyyət sahələri üzrə ixtisaslaşdığı, vergidən yayınma halları ilə mübarizə məqsədilə yaratdıqları xüsusi qurumlar, funksional formalaşma prinsipləri ilə tanış olmağa və müqayisə aparmaq üçün əyani təsvirlərin əldə edilməsinə əlverişli imkan yaradır.

### Beynəlxalq vergi sazişləri

Müasir dövrdə istənilən ölkənin hüquqi və fiziki şəxslərinin müxtəlif xarici dövlətlərdə sahibkarlıq fəaliyyəti həyata keçirməsi adi haldır. Bu baxımdan, həmin şəxslərin əldə etdikləri gəlir və ya mənfəətlərinin vergiyə cəlb olunması məsələsi ciddi aktuallıq kəsb edir. Bu zaman diqqət yetirilən əsas məsələlərdən biri əldə edilmiş gəlirin və ya mənfəətin hər iki dövlətdə: həm əldə edildiyi dövlətdə, həm də vergi ödəyicisinin rezident olduğu dövlətdə eyni vergiyə cəlb edilməməsi, yəni ikiqat vergitutmaya yol verilməməsidir.

Ölkəyə cəlb olunan xarici investisiyaların həcmində davamlı artım müşahidə olunan Azərbaycan Respublikasının ikiqat vergitutmanın aradan qaldırılması haqqında xarici dövlətlərlə bağladığı ikitərəfli müqavilələr şəbəkəsi də son illər əhəmiyyətli dərəcədə genişlənmişdir. Hazırda Azərbaycan Respublikasının ikiqat vergitutmanın aradan qaldırılması haqqında 48 beynəlxalq müqaviləsi vardır.

Beynəlxalq Vergi İnformasiya Platformasının «Beynəlxalq sazişlər» bölməsində Azərbaycanla saziş imzalayan ölkələr barədə məlumatlar əksini tapıb. İnteraktiv xəritəyə saziş imzalanan ölkələr daxil edilib. Həmin ölkələri bir-birindən fərqləndirmək üçün müxtəlif rənglərlə verilib. İnteraktiv xəritədən istifadə edərək müvafiq ölkənin üzərinə vurduqda, həmin ölkənin məlumat pəncərəsi açılır. Burada imzalanan saziş barədə məlumatlar (sazişin imzalanma, qüvvəyə minmə və tətbiq edilmə tarixləri) göstərilir. Bundan əlavə, məlumat pəncərəsində sazişlərin mətnləri Azərbaycan dilində və digər müvafiq dillərdə elektron formada yerləşdirilib. İnteraktiv xəritə ilə yanaşı, saziş imzalanan ölkələrin siyahısı da xüsusi paneldə yerləşdirilib: vergi əməkdaşı interaktiv xəritədə tapa bilmədiyi ölkəni bu panel vasitəsilə rahatlıqla tapa bilər.

Beləliklə, müasir innovativ texnologiya prinsipləri əsasında hazırlanmış interaktiv xəritə Azərbaycanla saziş imzalamış ölkələr şəbəkəsini vizual görmək imkanı yardır.

**A.NƏBİYEVA**

# Elektron xidmətlərin tətbiqində yenilik

*Azərbaycanda dövlət idarəçiliyinin müasir prinsiplər əsasında həyata keçirilməsi məqsədilə informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması dövlət siyasətinin prioritetlərindən birinə çevrilib. Son illər bu sahədə mühüm tədbirlər görülməkdədir.*

Vergi ödəyicilərinin rahatlığının təmin edilməsi, vergi orqanı ilə ödəyici arasında canlı təmasın, uzun sürən sənədləşmə prosedurlarının minimuma endirilməsi məqsədilə davamlı olaraq Vergilər Nazirliyi tərəfindən vergi xidmətlərinin elektron versiyası hazırlanıb ödəyicilərin istifadəsinə verilib. Xüsusən, elektron bəyannamə sisteminin, POS-terminalların, NKA-ların, fiziki və hüquqi şəxslərin elektron qeydiyyatının, ƏDV depozit hesabının, nəhayət, vergilərin və dövlət rüsumlarının elektron ödəniş sisteminin yaradılması ölkədə vergi ödəyicilərinin vergi öhdəliklərinə əməl etmələri üçün əlverişli şərait yaradıb. Statistik göstəricilər və əhali arasında keçirilən sorğular yaradılan elektron xidmətlərdən istifadə səviyyəsinin yüksək olduğunu göstərir.

Qanunvericiliyə görə, hər bir vergi növü üzrə bəyannamələrin təqdim edilməsi müddətləri vardır. Bütün vergi ödəyiciləri vergi öhdəliklərini vaxtında və tam həcmdə yerinə yetirməli, vergi bəyannamələrini gecikdirmədən vergi orqanlarına təqdim etməlidirlər. Mart ayının 31-i mənfəət, gəlir, əmlak və yol vergisi üzrə bəyannamələrin vergi orqanlarına təqdim edilməsinin son müddəti hesab olunur.

Nazirlər Kabinetinin «Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi qaydaları»nın və «Elektron xidmət növlərinin siyahısı»nın təsdiq edilməsi haqqında» qərarında dəyişiklik edilib. Dəyişiklik Vergilər Nazirliyinin Ədliyyə, Rabitə və Yüksək Texnologiyalar nazirliklərinin və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə razılaşdırılmış təklifinə əsasən edilib. Dəyişikliyə görə, Çağrı Mərkəzi vasitəsilə «Sadələşdirilmiş verginin bəyannaməsi»nin təqdim edilməsi, gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin qəbulu da «Elektron xidmət növlərinin siyahısı»na əlavə edilib.

Çağrı Mərkəzi İdarəsinin rəisi Nurlan Bayramlı bildirib ki, Vergilər Nazirliyi tərəfindən informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsinin genişləndirilməsi, göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi istiqamətində aparılan işlər çərçivəsində yeni nəsil elektron xidmətlərin tətbiq edilməsinə başlanılıb: «Beynəlxalq təcrübədə Çağrı Mərkəzinin əməliyyat aparmaq funksiyasının olması nəzərə alınaraq, Asan imzanın imkanlarından istifadə etməklə «Çağrı Mərkəzi vasitəsilə vergi ödəyicilərinə əməliyyat xarakterli xidmətlərin göstərilməsi» layihəsi hazırlanıb. İlkin olaraq «Çağrı Mərkəzi vasitəsilə sadələşdirilmiş verginin bəyannaməsinin təqdim edilməsi» xidməti hazırlanıb. Bu xidmət Asan imzası olan ödəyicilərin Vergilər Nazirliyinin Çağrı Mərkəzinə müraciəti əsasında, 1-ci, 2-ci və 3-cü rüblər üzrə sadələşdirilmiş vergi bəyannaməsinin hazırlanması və elektron qaydada göndərilməsini əhatə edir. Xidmət Nazirlər Kabinetinin 31 mart 2015-ci il tarixli 95 nömrəli qərarı ilə «Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları»nın və «Elektron xidmət növlərinin Siyahısı»na da əlavə edilib».

N.Bayramlı onu da qeyd edib ki, hazırda «Çağrı Mərkəzi vasitəsilə vergi ödəyicilərinə əməliyyat xarakterli xidmətlərin göstərilməsi» layihəsi üzrə «Çağrı Mərkəzi vasitəsilə fiziki şəxsin onlayn qeydiyyatı» və «Çağrı Mərkəzi vasitəsilə şəhadətnamə-dublikatın alınması üçün ərizənin göndərilməsi» yeni nəsil elektron xidmətlərin Vergilər Nazirliyi tərəfindən təqdim edilən elektron xidmətlərin siyahısına əlavə edilməsi istiqamətində işlər davam etdirilir.

**Fəxriyyə İKRAMQIZI**

# ƏDV saxtakarlığına qarşı mübarizə

Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) təşəbbüsü ilə 2015-ci il aprel ayının 15-dən 17-dək Polşanın Krakov şəhərində «ƏDV saxtakarlığına qarşı mübarizə» mövzusunda forum keçirilmişdir. 32 ölkənin vergi administrasiyasının 58 nümayəndəsinin iştirak etdiyi tədbirdə qoyulan mövzu ilə bağlı mövcud problemlər müzakirə olunmuşdur.

Tədbir zamanı Norveç, İsveç, Danimarka, Niderland Krallığı, Almaniya, Bolqarıstan, Finlandiya, Belçika vergi administrasiyalarının nümayəndələri təqdimatlarla çıxış etmişlər. Təqdimatlarda ödəniş platformaları, əlavə dəyər vergisində ödəniş platformaları üzrə təcrübələrin öyrənilməsi və trans-sərhəd ƏDV fırıldaqçılığı üzrə işlərin təşkili üzrə məsələlər öz əksini tapmışdır.

Forumda Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin Vergidən yayınma risklərinə nəzarət idarəsinin Risklərin təhlili şöbəsinin əməkdaşı Pərviz Zeynalov iştirak etmişdir.

# Qeyri-neft sektorunun inkişafı ilə bağlı tədbirlər davam etdirilir



İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktoru Vilayət Vəliyevin «Vergilər» qəzetinə müsahibəsi

***- Vilayət müəllim, iqtisadiyyatın neft-qaz asılılığından azaldılması və qeyri-neft sektorunun inkişaf etdirilməsi məqsədilə mövcud iqtisadi imkanların artırılması üçün yeni modelin hazırlanmasına və tətbiqinə ehtiyac varmı?***

- Azərbaycan hökumətinin müəyyən etdiyi strateji plana əsasən, yaxın onillikdə iqtisadiyyatın əsas ağırlıq mərkəzi qeyri-neft sektorunun üzərinə düşməlidir. Hazırda ümumi daxili məhsulun tərkibində qeyri-neft sektorunun artımı nəzərə çarpır və bu, Azərbaycan iqtisadiyyatının şaxələndiyini, neftdənkənar sahələrin inkişaf etdiyini təsdiqləyir. ÜDM-in 60%-i qeyri-neft sektorunun payına düşüb. Qeyri-neft sektorunun 7% artım tempi iqtisadiyyatın strukturunda dəyişikliklərin baş verdiyini əks etdirir.

Hazırda qeyri-neft sektorunun inkişafı ilə bağlı bir çox işlər görülməkdədir. İlk növbədə, infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində layihələr davam etdirilir. İnfrastruktur təminatının yaxşılaşdırılması və kommunal sektorun yenidən qurulması regionlarda iş adamlarının fəaliyyəti, investisiya qoyuluşları üçün mühüm əhəmiyyət daşıyır. Bu amillər iqtisadi resursların üzə çıxarılması üçün də olduqca vacibdir.

Qeyri-neft sektorunun inkişafı üçün müxtəlif layihələrin hazırlanması istiqamətində sistemli tədbirlər davam etdirilməkdədir. ÜDM-in strukturunda qeyri-neft sektorunun payının əhəmiyyətli dərəcədə yüksəldilməsi, adambaşına düşən qeyri-neft ÜDM-in həcminin artırılması və qeyri-neft ixracının artırılması əsas hədəflərdir. Bunlara çatmaq üçün iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və strukturunun təkmilləşdirilməsi, çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf təmayülünün təmin olunması kimi məqsədlər nəzərdə tutulub. Biznes mühitinin daha da yaxşılaşdırılması, maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi, İKT və rabitə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi, innovasiya fəaliyyətinin və insan kapitalının inkişafının təmin edilməsi, institusional potensialın gücləndirilməsi kimi istiqamətlər də bu siyasətin əsas tərkib hissəsidir.

***- Rəqabətqabiliyyətli, innovativ iqtisadiyyatın qurulması istiqamətində başlıca addımlar nədən ibarət olacaq?***

- Bu gün sabit iqtisadi artım üçün Azərbaycanın ehtiyat və imkanlarını birləşdirmək lazımdır. Bu isə bir tərəfdən fundamental və tətbiqi elmlər arasında əlaqələrin güclənməsi, digər tərəfdən də innovasiya məhsulunun istehsalı və bazarın zəbt edilməsi halında mümkündür. Ölkənin innovasiya sisteminin inkişafının prioritet istiqamətləri əqli və sənaye mülkiyyəti bazarının inkişaf mexanizminin yaradılmasıdır. Respublikada innovasiya proseslərinin təmin edilməsi üçün təşkilatların innovasiya menecmentinə öyrədilməsi, müvafiq informasiya bazasının yaradılması lazımdır. Bütün bunlar respublikada innovasiya fəaliyyətinin kompleks sisteminin yaradılmasının vacibliyini şərtləndirir. Bundan əlavə, müasir dövrdə elm və elmtutumlu istehsalın inkişafının yeni formaları da axtarılır. Bu məsələlərin həlli istiqamətlərindən biri texnoparkların yaradılmasıdır. Bundan sonra isə innovasiya fəaliyyətinin inkişaf infrastrukturu olan texnopark şəbəkəsi konsepsiyasının yaradılması lazımdır.

Respublika iqtisadiyyatının diversifikasiyasının məqsədi yeni növ məhsul və xidmətlərin istehsalı hesabına ÜDM-in artırılması, yerli və dünya bazarında yüksək texnoloji məhsulun rəqabət qabiliyyətliyinin gücləndirilməsi, istehsal səmərəliliyinin artırılması üçün yeni texnologiyaların yaradılması və qabaqcıl texnologiyaların cəlb edilməsi, elmtutumlu sahələrin çoxaldılmasıdır. Buna görə də texnoparklar şəbəkəsinin konsepsiyası elmə əsaslanan biznesin inkişafına, sahibkarlıq fəaliyyətinə yönəldilir.

Tədqiqatlara əsasən, texnoparkın səmərəli fəaliyyəti bütün mərhələlərdə səmərəli dövlət dəstəyi mexanizminin yaradılması şəraitində mümkündür. Belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasında innovasiya infrastrukturunun bütün subyektlərinə (sənaye parkları, texnoparklar, aqroparklar, sənaye məhəllələri və s.) dövlət dəstəyinin və güzəştlərinin şamil edilməsi üçün bu subyektlər haqqında ümumi dövlət qanunvericiliyinin və innovasiya fəaliyyəti ilə məşğul olan subyektləri əlaqələndirən qurumun olması məqsədəuyğundur. Belə bir əlaqələndirici sistem innovasiya infrastrukturunun bütün subyektlərinin fəaliyyət sahəsinə, yerləşməsinə və tərkibinə, istiqamətinə, eləcə də digər məsələlərə dair məlumatların daim yenilənməsinə, müəyyən edilmiş hallarda və qaydada dövlət və yerli özünüidarəetmə orqanlarını, habelə fiziki şəxsləri həmin məlumatlarla təmin etmək, innovasiya infrastrukturu subyektləri üzrə informasiya sistemlərinin aparan dövlət orqanlarının qarşılıqlı fəaliyyətinin səmərəliliyini artırmaq üçün vahid dövlət reyestrinin də yaradılması məqsədəuyğundur.

***- Regional tarazlığın təmin olunması və bölgələrdəki iqtisadi potensialın daha da artırılması üçün hansı tədbirlərin görülməsini zəruri hesab edirsiniz?***

- Regional tarazlığın təmin olunması və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi məsələlərində iqtisadi rayonların təbii resurslarından və insan potensialından səmərəli istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Məhz bu baxımdan, hər bir regionun öz potensialına uyğun ixtisaslaşması zəruridir. Bölgələrin inkişafını tənzimləmək, eləcə də bu iqtisadi əlaqələrin nizamlanması məqsədi ilə istehsal sahələrinin təmərküzləşdirilməsi istiqamətində əməli tədbirlər davam etdirilməlidir. Ölkəmizin tarixən aqrar sahə üzrə ixtisaslaşdığını nəzərə alsaq, aqrar sənaye komplekslərinin və parklarının yaradılması istiqamətində işlərin sürətləndirilməsi zəruridir. Bütün bunlar isə, sözsüz ki, geniş araşdırma, elmi tədqiqat işlərinin aparılmasının vacibliyini bir daha gündəmə gətirir.

***- Rəhbərlik etdiyiniz müəssisə Azərbaycanda rəqabətədavamlı, ixracyönümlü məhsulların istehsalı ilə bağlı müxtəlif ölkələrin təcrübəsini öyrənib. Əməkdaşlıq şəraitində Azərbaycanda müxtəlif innovativ layihələrin həyata keçirilməsi planlaşdırılır...***

- Yerli mütəxəssislərin hazırladığı innovativ təkliflərin sənaye sektorunda təşviqi məqsədilə dövlət orqanlarının, müəssisələrin və elmi təşkilatların nümayəndələrindən ibarət İnnovasiyaların Təşviqi Qrupu yaradılıb. Qrupa rəhbərlik edən şəxs kimi deyə bilərəm ki, məqsədimiz inteqrasiya olunmuş, qarşılıqlı əlaqələndirilən, sistem xarakterli tədbirlər kompleksi əsasında səmərəli fəaliyyət göstərən milli innovasiya sistemi formalaşdırmaqdır. Buraya innovasiyaların generasiyası, yayılması və kommersiyalaşdırılması mexanizmlərini yaratmaq, elm-istehsalat-biznes əlaqələrini formalaşdırmaq, innovativ təkliflərin sənaye sektoruna tətbiqini genişləndirmək üçün dövlət orqanları, müəssisə, elmi təşkilat və sənaye sektorunun nümayəndələri arasında qarşılıqlı əməkdaşlığı və fəaliyyəti inkişaf etdirməkdir. Qrup hazırda tədbirlər planı və təşviq mexanizmləri hazırlamaq, ölkənin innovasiya fəaliyyətinin vəziyyətini təhlil etmək, yenilikçi təklifləri sənaye sektorunun və regionların tələblərinə uyğun seçmək üzərində işləyir. Bu prosesə yerli mütəxəssisləri cəlb etmək üçün stimullaşdırma üsulları müəyyənləşdirilir, innovativ xarakterli yüksək səmərəliliyə malik ixtira və təkliflərin seçilməsi, təbliğ olunması və sənayeyə tətbiq etmək üçün təşkilatlara tövsiyələr hazırlanır.

***- İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu Azərbaycanın iqtisadi rayonlarında kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşma ilə bağlı təkliflər hazırlayıb. Sənədin başlıca istiqamətləri hansılardır?***

- Kənd təsərrüfatı iqtisadi inkişafın təmin edilməsində əsas sahələrdən biri olduğundan, dövlətin son illər bu sahəyə dəstəyinin artırılması müşahidə edilir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında (2009-2013-cü illərə dair) kənd təsərrüfatında ixtisaslaşmanın səviyyəsinin müəyyən edilməsi ilə bağlı müddəalar öz əksini tapıb və bizim instituta konkret tapşırıqlar verilib. Ötən müddət ərzində bu sahə ilə əlaqədar ətraflı tədqiqatlar apardıq, kənd təsərrüfatında həm inzibati, həm də iqtisadi rayonlar üzrə ixtisaslaşmanın vəziyyətini təhlil etdik. Keçmiş sovet dövründən tutmuş indiki vəziyyətə qədər hər rayonun potensialının qiymətləndirilməsi aparıldı. Təhlillər nəticəsində kəndliyə verilmiş pay torpağından necə istifadə edilməsi, fermer təsərrüfatlarının gücü, dövlətin bu sahəyə dəstəyi və digər amillər müəyyənləşdirildi. Əsas meyar kimi kənd təsərrüfatı məhsulunun həcminin əhalinin sayına olan nisbəti dəqiqləşdirildi. Fikrimcə, hər bir iqtisadi rayon üçün ağırlıq mərkəzi seçilməlidir. Məsələn, Lənkəran Cənub iqtisadi rayonları üçün cazibə mərkəzi seçilə bilər. Yəni idarəetmə, aqrar siyasətin həyata keçirilməsi bu mərkəzlər vasitəsilə tənzimlənməlidir.

İxtisaslaşma hər bir rayonun iqtisadi potensialını müəyyənləşdirməklə yanaşı, digər sahələrin inkişafına da şərait yaradır. İxtisaslaşma nəticəsində sahələrarası inteqrasiyanı da bərpa etmək mümkün olur. İxtisaslaşmanın ən mühüm əhəmiyyəti ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinin təmin edilməsində və qiymətlərin aşağı düşməsində, eləcə də ixracın artmasında oynadığı roldur.

Bu modelin tətbiqi rayonlararası inteqrasiyanın dərinləşməsinə, kiçik pay torpaqları olan mülkiyyətçilərin kooperasiyalarda birləşərək iri sahibkarlıq təsərrüfatları yaratmasına səbəb olacaq. Nəticədə kənd təsərrüfatında rəqabətqabiliyyətlilik artacaq, ekoloji kənd təsərrüfatı məhsulunun hazırlanması asanlaşacaq.

***- Ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyasının daha da dərinləşməsi üçün hansı işlər planlaşdırılır?***

- Bunun üçün regionların davamlı inkişafının elmi əsaslarının işlənib hazırlanması tələb olunur. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında ümumi hədəflər müəyyən edilib. Ayrı- ayrı sahələrin inkişaf proqramı hazırlanıb və regionların davamlı inkişafına nail olmaq üçün 2014-2018-ci illərə dair İnkişaf Proqramının müvafiq bəndləri üzrə mütəmadi tədbirlər həyata keçirilməkdədir. Bütün bu proqramların icrasının iqtisadi inkişafa mümkün təsirlərinin öyrənilməsi istiqamətində elmi əsaslara söykənən tədqiqat işlərinin aparılması yönündə institutun fəaliyyəti zəruridir və görülən işlər davamlı xarakter daşıyır.

***Müsahibəni hazırladı:***
**Elbrus CƏFƏRLİ**






Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

## Vergi sisteminin funksiyaları və onların əhəmiyyəti

Vergi sistemi dedikdə, müəyyən dövr ərzində ölkə ərazisində tətbiq olunan vergilərin məcmusu nəzərdə tutulur. Dünyada, o cümlədən Azərbaycanda büdcə gəlirlərinin formalaşmasında əsas rol oynayan vergi və yığımlara əlavə dəyər vergisi, mənfəət vergisi, fiziki şəxslərin gəlir vergisi, sosial fondlara ayırmalar aid edilir.

Dünya ölkələrinin biri-birindən fərqli vergi sistemləri var. Xüsusən də ABŞ-ın, Yaponiyanın, Fransanın, Almaniyanın, İsveçin, Böyük Britaniyanın özünəməxsus vergi sistemləri mövcuddur. Bunların fərqli xüsusiyyətləri, əsasən, sistem qarşısında qoyulan vəzifələrdən, ölkələrin iqtisadiyyatının ənənəvi milli xüsusiyyətlərindən irəli gəlir. Bununla belə, ayrı-ayrı ölkələrin vergi sistemlərində oxşar və ümumi əlamətlər də mövcuddur.

Vergi nəzəriyyəsində vergi sistemi ilə yanaşı, vergi mexanizmi deyilən anlayışa da çox rast gəlinir. Vergi sistemi ilə müqayisədə vergi mexanizmi daha geniş anlayış olmaqla vergi qanunvericiliyinin yerinə yetirilməsinə yönəldilən təşkilati- hüquqi xarakterli metod və vasitələrin məcmusunu təşkil edir. Vergi mexanizminin müəyyən olunmasında əsas rolu vergi qanunvericiliyi oynayır. Vergitutma mexanizmi vergi dərəcələrinin səviyyəsini, güzəşt və azadolmaları, vergitutma bazasının müəyyən edilməsi qaydasını, vergitutmanın obyektlərini və vergilərin hesablanması ilə bağlı digər elementləri nəzərdə tutur. Bu və ya digər verginin alınması mexanizmini dəyişməklə vergi sisteminin keyfiyyət göstəricilərinin yüksəlməsinə nail olmaq mümkündür. Dünya təcrübəsində vergi sistemi və vergilərin dərəcələrinin səviyyəsi ilə bağlı vergi mexanizminə edilən dəyişikliklərə yalnız zərurət yarandıqda yol verilir. Vergi güzəşt və azadolmaları isə nisbətən daha tez-tez dəyişikliyə məruz qalan elementlərdir.

Vergi sistemi vahid sistem olsa da ona daxil olan hər bir verginin öz funksiyaları olur. Mütəxəssislərin vergilərin müxtəlif funksiyaları barədə fərqli fikirləri olmasına baxmayaraq, bu gün vergilərin bütün dünyada tanınmış əsas funksiyası fiskal funksiya sayılır. Bundan əlavə, dövlət özünün ənənəvi ictimai-siyasi funksiyalarını yerinə yetirməklə yanaşı, həm də bu və ya digər formada sosial-iqtisadi proseslərin tənzimlənməsini həyata keçirir. Nəzəriyyədə dövlətin vergi sisteminin ümumiləşdirilmiş şəkildə altı əsas funksiyası qeyd olunur:

- fiskal;
- tənzimləyici;
- bölüşdürücü;
- sosial;
- stimullaşdırıcı;
- nəzarətedici.

Fiskal funksiyanın əsas məqsədi dövlətin büdcə sisteminin gəlirlərlə təmin edilməsidir və dövlətin xüsusi nəzarəti və təsiri altında həyata keçirilən maliyyə siyasətinin mərkəzində dayanır. Fiskal funksiyanın həyata keçirilməsində əsas maraqlı tərəf dövlətdir. Dövlət həmişə vergi mənbələrinin artırılmasında maraqlıdır. Bu isə bütün digər funksiyalarla müqayisədə fiskal funksiyanın daha önəmli sayılmasını şərtləndirir.

Tənzimləyici funksiya ölkədə gedən makroiqtisadi prosesləri, tələb və təklifləri, inkişaf templərinin və məşğulluğun tənzimləməsində mühüm rol oynayır.

Vergi sisteminin bölüşdürücü funksiyası özünü qiymətlər, gəlirlər, səhmlərin kurslarının dinamikası və s. iqtisadi elementlər ilə mürəkkəb əlaqədə göstərir. Bu funksiya təkcə gəlirlərin deyil, eyni zamanda kapital və investisiya resurslarının bölüşdürülməsini təmin edir.

Vergi sisteminin sosial funksiyası müxtəlif aspektli xarakter daşımaqla istehsal fəaliyyətindən ödənilən vergilərin qeyri-istehsal fəaliyyətinə, yəni sosial məqsədlərə yönəldilməsini nəzərdə tutur. Bu funksiya daha çox özünü vergi güzəştlərinin verilməsi və vergi dərəcələrinin aşağı salınması zamanı göstərir.

Vergi sisteminin tənzimləyici funksiyası onun ən mühüm və həyata keçirilməsi çətin olan funksiyası hesab edilir. Onu makroiqtisadi tənzimləmə funksiyası da adlandırırlar: çünki birbaşa fiziki və hüquqi şəxslərin iqtisadi maraqlarının təmin olunmasına yönəldilməklə onlarla sıx əlaqədə olur. Vergi sisteminin digər funksiyaları kimi, tənzimləyici funksiyası da vergi mexanizminin xüsusi formaları, elementləri, vergi güzəştləri sistemi, dərəcələrin hədləri və digər vergi mexanizmi alətləri vasitəsilə özünü göstərir.

Vergi sisteminin nəzarətedici funksiyası qoruyucu mahiyyət daşıyır. O, hökumətin gücünün təsirliliyini təmin etməklə, dövlət və biznes subyektləri arasındakı vergi münasibətlərinin davamlılığına xidmət edir. Nəzarətedici funksiya olmadan vergi sisteminin digər funksiyaları da mövcud ola bilməz və onların yerinə yetirilməsi əhəmiyyətsiz olar. Nəzarətedici funksiya qanunun tələblərinə əsaslanmaqla onun səmərəliliyi, yalnız dövlət gücünə tabeçilik və məcburi əməletmə prinsipi əsasında təmin edilir. Dövlət hakimiyyəti nə qədər güclü olarsa, onun nəzarətedici funksiyası da bir o qədər güclü olar.

Onu da qeyd etmək lazımdır ki, aparılmış təhlillərə əsasən, müasir dövrdə vergi sisteminin funksiyalarının ilə sahibkarlıq subyektlərinin funksiyalarının tam uzlaşması, bazar və rəqabət uğrunda gedən mübarizəyə tam adaptasiya olunması prosesləri hələ davam etməkdədir. Bu məsələnin uğurlu həlli vergi siyasətinin səmərəli inkişafında və yüksək keyfiyyətli vergi mexanizmlərinin qurulmasında mühüm əhəmiyyət kəsb edir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Aksiz markası

***Aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış mallar aşkar edildiyi təqdirdə, vergi orqanı tərəfindən hansı tədbirlər görülür və bu halda vergi ödəyiciləri hansı məsuliyyəti daşıyırlar?***

Belə hal aşkar edildiyi təqdirdə, vergi orqanı ilk növbədə Vergi Məcəlləsinin (VM) 89-cu maddəsinin tələblərinə uyğun şəkildə həmin malların siyahıya alınmasını təşkil edir. VM-in 89.13-cü maddəsinə əsasən, aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması vergi ödəyicisinin həmin mallar barəsində hüquqlarının məhdudlaşdırılmasıdır: bu zaman vergi ödəyicisi siyahıya alınmış aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış mallara sahiblik, onlardan istifadə etmək və sərəncam vermək hüququna malik olmur. Aksiz markaları ilə markalanmalı olan malların markalanmadan və ya saxta markalanmaqla satışı və ya saxlanılması aşkar edildikdə (içməli spirtin, pivənin, spirtli içkilərin bütün növlərinin və tütün məmulatlarının) ümumi miqdarı Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş formaya uyğun aktla, hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin rekvizitləri və onların səlahiyyətli nümayəndəsinin adı və soyadı göstərilməklə rəsmiləşdirilir, akt vergi orqanı nümayəndələrinin, habelə obyektin məsul şəxsinin və müşahidəçilərin imzaları ilə təsdiqlənir. Vergi ödəyicisi və ya onun səlahiyyətli nümayəndəsi aktda öz qeydlərini edə, eləcə də aktı imzalamaqdan imtina edə bilər və bu barədə həmin aktda müvafiq qeyd aparılır. Bundan əlavə, aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların (içməli spirtin, pivənin, spirtli içkilərin bütün növlərinin və tütün məmulatlarının) Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş formaya uyğun siyahısı tərtib edilir. Siyahıda malların adı, fərqləndirici əlamətləri, mənşə mənbəyi, alış və satış qiymətləri, vergi orqanının adı, siyahıya almanı həyata keçirən vəzifəli şəxslərin adı, soyadı və atasının adı, siyahıya almanın həyata keçirildiyi tarix və yer, vergi ödəyicisi və onun nümayəndəsi haqqında məlumat, müşahidəçilər və dəvət olunmuş mütəxəssislər haqqında məlumatlar əks etdirilir.

Vergi ödəyiciləri aksiz markası ilə markalanmalı olan məhsulların (malların) belə marka olmadan beş yüz manatadək miqdarda satılmasına, satış məqsədi ilə saxlanmasına və ya istehsal binasının hüdudlarından kənara çıxarılmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 229-cu maddəsinə görə inzibati məsuliyyət və aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan beş yüz manatdan yuxarı miqdarda satma, satış məqsədi ilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etməsinə görə Cinayət Məcəlləsinin 213-1-ci maddəsinə görə cinayət məsuliyyəti daşıyır.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# Azərbaycanın vergi sistemi Avropa standartlarına uyğunlaşdırılır

Vergi siyasəti də daxil olmaqla, iqtisadi siyasət sahəsində kompleks tədbirlərin həyata keçirilməsi «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında Vergilər Nazirliyinə aid çoxşaxəli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Bu istiqamətdə islahatların aparılması üçün Vergilər Nazirliyi tərəfindən «Vergi sisteminin inkişafı üzrə Strateji Plan» təsdiq edilmişdir. Bu plan çərçivəsində 2020-ci ilədək daha mütərəqqi, mükəmməl və beynəlxalq standartlara cavab verən vergi sistemi formalaşdırılacaq. Strateji Planın həyata keçirilməsi zamanı aşağıdakı prinsiplər əsas götürüləcək:

- ***Bərabərlik*** - bütün vergi ödəyiciləri üçün bərabər və ədalətli şərait yaradılması;
- ***Sadəlik*** - vergi ödəyicilərinin öz öhdəliklərini tam və vaxtında yerinə yetirmələri, eyni zamanda vergi orqanlarının inzibati xərclərinin və vergi nəzarəti sahəsindəki çətinliklərin azalması üçün vergi sisteminin mümkün qədər sadələşdirilməsi;
- ***Kafilik*** - dövlət büdcəsinin kifayət qədər və qabaqcadan məlum olan gəlir mənbələri ilə təmin edilməsi;
- ***Səmərəlilik*** - vergi sistemi səmərəli olmalı, ölkə iqtisadiyyatında məhsul və xidmətlərin istehsal həcminin artırılmasını təmin etməli, dövlətin və vergi ödəyicilərinin müvafiq olaraq vergilərin yığılması və ödənilməsi ilə bağlı xərcləri azaldılmalıdır;
- ***Rəqabət qabiliyyəti*** - vergi sahəsində uzunmüddətli, davamlı və real iqtisadi inkişafı, yeni iş yerlərinin açılmasını və artımını təmin edən sistemin yaradılması;
- ***Şəffaflıq*** - islahatların şəffaflıq şəraitində aparılması və islahatın gedişi barədə vergi ödəyicilərinin mütəmadi məlumatlandırılması imkanlarının yaradılması;
- ***Məqsədyönlülük*** - vergi sisteminin qurulmasında və səmərəliliyinin artırılmasında iqtisadi inkişaf nəzərə alınmalı, vergi qanunvericiliyi və inzibatçılığının səmərəliliyinin artırılması ilə iqtisadi inkişafa müsbət təsir göstərilməlidir.

Azərbaycanın qlobal dünya iqtisadiyyatına inteqrasiyası onun vergi qanunvericiliyinin təkmilləşdirilməsini və beynəlxalq standartlara uyğunlaşdırılmasını tələb edir. 2020-ci ilədək vergi qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə və ÜTT-nin tələblərinə uyğunlaşdırılması nəzərdə tutulub. Bu məqsədə çatmaq üçün aksizli malların idxalına və daxildə istehsalına tətbiq olunan aksiz dərəcələrinin eyniləşdirilməsi, Azərbaycanın vergi qanunvericiliyi bazasının Avropa İttifaqının direktivlərinə və ÜTT-nin tələblərinə uyğunlaşdırılması davam etdiriləcək.

Qeyri-neft sektorunun inkişafı və ixrac potensialının gücləndirilməsi məqsədilə bu sahələrdə tətbiq olunan vergi güzəştlərinin monitorinqinin aparılması, onların bir qisminin ləğv edilməsi, yenilərinin tətbiq olunması zərurətini meydana çıxarır. Burada əsas məqsəd istiqamətlərin düzgün müəyyənləşdirilməsi olacaqdır.

Təkmilləşdirmənin əsas istiqaməti vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin yaradılmasıdır. Özəl vergi məsləhətçiləri, vergi ombudsmanı institutlarının yaradılması, vergi ödəyicilərinə xidmət mərkəzlərində göstərilən xidmətlərin spektrinin genişləndirilməsi və xidmət səviyyəsinin artırılması, ünvanlı xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və digər məqsədlər də nəzərdə tutulub. Əhalinin vergi mədəniyyətinin yüksəldilməsi, gələcəyin intizamlı, savadlı vergi ödəyicilərinin formalaşdırılması işinin səmərəliliyinin artırılması üzrə strateji məqsədə nail olmaq üçün bu sahədə beynəlxalq təcrübənin araşdırılması, məlumatlandırma vasitələrinin, xüsusi dərslik və tədris vəsaitlərinin hazırlanması lazım gəlir. Vergi ödəyiciləri, eləcə də əhalinin digər təbəqələri arasında vergi mədəniyyətinin yüksəldilməsinə xidmət edən məlumatlandırma, maarifləndirmə və təbliğat işinin səmərəliliyini təmin etmək məqsədilə sahibkarların və istehlakçıların ictimai birlikləri, təhsil müəssisələri ilə əməkdaşlığın genişləndirilməsi və bu sahədə müvafiq tədris-metodiki təlimatların hazırlanması planlaşdırılır. Strateji Plan çərçivəsində həyata keçirilən islahatlara informasiya dəstəyinin gücləndirilməsi və ayrı-ayrı tədbirlərin KİV-də geniş işıqlandırılması da vacib hesab olunur.

Müasir nəzarət metodlarının tətbiqi ilə əlaqədar strateji məqsədə nail olmaq üçün elektron auditin aparılması üzrə qanunvericilik bazasının yaradılması və vergi ödəyicilərində mühasibat uçotunun elektron qaydada aparılmasına keçidin sürətləndirilməsi, audit sahəsində çalışan əməkdaşlara iş yerlərində ayrı-ayrı funksional sahələr üzrə e-audit, e-mühasibat və informasiya texnologiyaları sahəsində treninq proqramlarının təşkili nəzərdə tutulur. E-auditin tətbiqinin həyata keçirilməsi və e-auditlə bağlı müvafiq informasiya texnologiyaları sistemlərinin işə salınmasının təmin edilməsinə də yaxın dövrdə nail olunacaq.

*Qəbul olunmuş Strateji Plana əsasən, 2020-ci ilədək daha mütərəqqi, mükəmməl və beynəlxalq standartlara cavab verən vergi sistemi formalaşdırılacaq*

Qabaqcıl beynəlxalq təcrübələr öyrənilərək «Elektron cinayət işi» konsepsiyası hazırlanacaq və onun tətbiqi ilə əlaqədar mövcud qanunvericiliyə əlavə və dəyişikliklər ediləcək. Bununla yanaşı, vergidən yayındırılan dövriyyələrin aşkar olunması ilə bağlı köhnə NKA aparatlarının daha müasir avadanlıqlarla əvəz edilməsi üzrə təkliflərin verilməsi, əhalinin nağd ödənişlər zamanı çek tələb etmələri üçün stimullaşdırıcı tədbirlərin (çek lotereyaları, bonus kampaniyaları) həyata keçirilməsi də gündəlikdədir.

Vergi potensialının qiymətləndirilməsi və proqnozlaşdırılması modelləri sisteminin tətbiqi, onun müvafiq proqram paketi ilə təmin olunması, vergi orqanları tərəfindən nəzarət edilməsi nisbətən çətin olan peşələr (ev təmiri üzrə ustalar, bağbanlar, dayələr, ev qulluqçuları və digər oxşar peşələr) üzrə, habelə digər sahələrdə vergidən yayınma hallarının minimuma endirilməsi məqsədilə ictimai nəzarətin gücləndirilməsini stimullaşdırılması üçün qanunvericilikdə dəyişikliklərin edilməsi istisna edilmir.

Vergi borclarının alınmasının yeni üsullarının müəyyən edilməsi də beynəlxalq təcrübəyə əsaslanacaq. Kiçik məbləğli vergi borclarının büdcə daxilolmaları baxımından qiymətləndirilərək səmərəli idarə edilməsi mexanizmlərinin tətbiqi üçün təkliflər hazırlanacaq. Vergi öhdəliklərinin beynəlxalq miqyasda qəbul olunan əməletmə (tax compliance) modelinə uyğun icra edilməsi vəziyyətinin qiymətləndirilməsi və könüllü ödəmənin təşviqi üçün təkliflərin verilməsi, siyahıya alınmış əmlakların elektron hərraclar vasitəsilə satışının təşkili üçün aidiyyəti dövlət orqanlarına təkliflərin təqdim edilməsi, dövlət büdcəsinə borcu olan şəxslərin (o cümlədən vergi ödəyicilərinin) borclarının əlaqələndirilməsi məqsədilə borclar üzrə vahid portalın yaradılması üçün təkliflər hazırlanacaq.

Vergi sistemində tədris və təlim prosesinin təkmilləşdirilməsi strateji məqsədinə nail olmaq üçün vergi orqanları əməkdaşlarının peşə hazırlığının təkmilləşdirilməsi və ixtisaslarının artırılması prosesində beynəlxalq təlim metodlarının tətbiqinə üstünlük veriləcək. Vergi sisteminin inkişafı və hüquqi təminatına dair aktual elmi tədqiqat və araşdırma işlərinin genişləndirilməsi, Vergilər Nazirliyinin Tədris Mərkəzinin bazasında Regional Təlim və Tədqiqat Mərkəzinin yaradılması, əməkdaşların peşə hazırlığı prosesində elektron təhsil (e-learning) sisteminin tətbiqi istiqamətində işlər davam etdiriləcəkdir.

**Rəşad SADIQOV**

# Beynəlxalq tendensiyalar nəzərə alınır

*Dövlət Sosial Müdafiə Fondu (DSMF) və Avropa İttifaqının birgə layihəsi üzrə «Sığorta-pensiya sistemində yığım komponentinin tətbiqi və qeyri-dövlət pensiya fondlarının fəaliyyəti üzrə qanunvericiliyin çərçivə planı» müzakirə edilib.*

Tədbirdə DSMF-nin sədri Elman Mehdiyev ölkəmizdə bazar iqtisadiyyatının tələblərinə uyğun gerçəkləşdirilən islahatlarla əhalinin rifahının əlaqələndirilməsi konsepsiyasının uğurlu icrası nəticəsində sosial müdafiə sisteminin beynəlxalq standartlar əsasında keyfiyyətcə yenidən qurulduğunu qeyd etmişdir. Bildirilmişdir ki, iqtisadi artımla sosial xərclərin artımının balanslaşdırılmasının diqqət mərkəzində saxlanılması vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsini təmin edir: «Ölkəmizdə vahid prinsiplər əsasında fəaliyyət göstərən və bütün işləyən əhalini əhatə edən, pensiyaların məbləğinin sistemə ödənilmiş sosial sığorta haqlarına bağlı olduğu, müasir çağırışlara çevik reaksiya verən sığorta-pensiya sisteminin formalaşdırılması nəticəsində beynəlxalq təcrübədə pensiya sistemləri qarşısında qoyulan mühüm vəzifələrin həllinə nail olunmuşdur».

Qeyd edilmişdir ki, bütün bunlarla yanaşı, Azərbaycanda uzunmüddətli dövr üçün pensiyaçıların etibarlı sosial müdafiəsinə nail olmaq məqsədilə milli pensiya sisteminin inkişafında beynəlxalq tendensiyaların nəzərə alınması və pensiya təminatının daim yenilənən müasir tələblərə uyğunlaşdırılması zəruridir: «Ölkəmizdə pensiya islahatlarının yeni mərhələsinin prioritet hədəfləri «2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası»nda müəyyən olunub. Konsepsiyanın mühüm əhəmiyyəti pensiya sistemində sığorta prinsiplərinin gücləndirilməsi və təyin olunan pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyinin təmin edilməsi, sığorta-pensiya sisteminin uzunmüddətli inkişafı üçün aktuar təhlillərə əsaslanan mexanizmlərin formalaşdırılmasıdır. Bununla yanaşı, əlavə pensiya təminatı imkanlarının yaradılması məqsədilə könüllü sosial sığortanın tətbiqi də islahatların əsas vəzifələrindəndir. Könüllü sosial sığortanın tətbiqi, əmək pensiyalarının könüllü yığım komponentinin fəallaşdırılması və qeyri-dövlət pensiya institutlarının inkişaf etdirilməsi üçün islahat tədbirlərinin reallaşdırılması mürəkkəb mərhələ olmaqla, ölkədə investisiya mühitindən, maliyyə və qiymətli kağızlar bazarının inkişafından və sığorta-pensiya sistemindən kənar bir sıra amillərdən asılıdır ki, bu da beynəlxalq təcrübə öyrənilməklə hərtərəfli araşdırmaların aparılmasını zəruri edir».

Fond sədri bildirib ki, Azərbaycanda yığım komponentinin tətbiqi və özəl pensiya fondlarının fəaliyyətinin təşkili üzrə DSMF və Avropa Birliyinin birgə layihəsinin aralıq mərhələsində «Çərçivə planı» açıqlanacaq: «Hər hansı qanunvericiliyin hazırlanması üçün Avropa təcrübəsinə uyğun olaraq, ilk növbədə, mövcud vəziyyət dərindən öyrənilməli, təsir edəcək amillər qiymətləndirilməli, araşdırmalar aparılmalıdır. Avropalı ekspertlər Azərbaycanın dövlət qurumları aidiyyəti maliyyə və bank sektorunun subyektləri ilə qarşılıqlı görüş əsasında tədqiqatı yekunlaşdırıblar və müxtəlif istiqamətlər üzrə alternativlər təqdim edirlər. «Çərçivə planı»nın konkret variantı seçildikdən sonra qanunvericiliklə bağlı məsələlərin yekunlaşdırılması başa çatdırılacaq.

*DSMF və Avropa Birliyinin birgə layihəsinin aralıq mərhələsində «Çərçivə planı» açıqlanacaq*

**AYTƏN**

# İpoteka kreditlərinin sosial təyinatı gücləndirilir

## İpoteka proqramı çərçivəsində ilkin bazara, yəni yeni tikililərin alınmasına yönəldilən vəsaitlərin ən azı 20%-i vergi ödəmələri şəklində dövlət büdcəsinə qayıdacaq

*İpoteka kreditlərinin faiz dərəcələri müxtəlif amillərdən asılı olur.*

İnkişaf etmiş ölkələrdə əsas amil mərkəzi bankların yürütdükləri pul-kredit siyasətləridir: uçot dərəcəsi azaldılanda ipoteka kreditləri üzrə faizlər də azalmağa başlayır. Mərkəzi bankların yürütdükləri yumşaq pul-kredit siyasəti nəticədə daha çox insana ipoteka kreditləri almaq imkanları yaratmaqla daşınmaz əmlak bazarında aktivliyi artırır.

Hazırda Azərbaycan Mərkəzi Bankının (AMB) uçot dərəcəsi 3,5%-dir. İpoteka kreditləşməsi sahəsində 2 sistem formalaşıb: dövlət dəstəyi ilə həyata keçirilən ipoteka proqramı və kommersiya banklarının müstəqil həyata keçirdiyi ipoteka kreditləşməsi. Dövlət ipoteka proqramı üzrə adi kreditlər 8%-ə, sosial ipoteka kreditləri isə 4%-ə təklif edilir. Kommersiya banklarının təklif etdiyi ipoteka kreditlərinə maraq azdır.

Milli Məclisdə Nazirlər Kabinetinin 2014-cü ildəki fəaliyyəti ilə bağlı hesabatın müzakirəsi zamanı AMB İdarə Heyətinin sədri Elman Rüstəmov ipoteka vəsaitlərinin yeni tikintiyə yönəldilməsi istiqamətində artırılması haqda məlumat verərək müvafiq qurumlarla yeni tikintidə alınan mənzillərin bilavasitə ipotekaya girov kimi qoyulması məsələsinin həll edilməsinin zəruriliyi haqda danışıb. Bildirilib ki, ipoteka vəsaitinin əhəmiyyətli dərəcədə artırılacağı fonunda ipotekada iqtisadi fəallıq canlandırılacaq. O da məlum olub ki, «sosial evlərin» tikintisi ipoteka vasitəsilə maliyyələşdiriləcək.

Qeyd edək ki, yalnız Bakı şəhərində qeydiyyatda olan 60 minə yaxın ailənin evə ehtiyacı var. Dünya Bankının hesablamalarına görə, problemin köklü həllinə 6 milyard dollar vəsait lazımdır. «Sosial evlərin» mahiyyəti ondan ibarətdir ki, dövlət insanların minimal tələbatını ödəyən evlər inşa edir və aztəminatlı ailələrə kirayəyə verir. Kirayə haqları isə bazar qiymətlərindən 3-4 dəfə aşağı olmaqla simvolik xarakter daşıyır. Əgər kirayə haqqından əlavə pul da ödənilərsə, həmin vəsaitlər toplanaraq dəyəri çıxıldıqdan sonra mənzil şəxsi mülkə çevrilir. Türkiyə artıq uzun illərdir bu təcrübədən yararlanır. Avropa ölkələrinin əksəriyyətinin mənzil fondunun 30 faizini «sosial evlər» təşkil edir.

«Value and Sources» konsaltinq şirkətinin eksperti Rəşad Əliyev məsələnin rəsmi səviyyədə gündəmə gətirilməsinin müsbət tendensiya olduğunu bildirir: «Əvvəlki təhlillərdə qeyd etmişdik ki, hazırda mövcud olan dövlət ipoteka proqramının iqtisadi səmərəsi azdır. Çünki vəsaitlər əsasən təkrar bazardakı mənzil alışına yönəldilir. İqtisadi səmərəsizliyi ilə yanaşı, proqram daşınmaz əmlak bazarında «ekonom sinfə» (dəyəri ucuz mənzillər) aid mənzillərə tələbatı yüksəldərək onların qiymətinin artımına səbəb olurdu. Bu proses ilkin bazara çox cüzi müsbət təsir göstərirdi. İqtisadi cəhətdən səmərəsi az olmasına baxmayaraq, mövcud proqram sosialyönümlüdür və məqsəd ev almaq üçün maddi imkanı az olan ailələrə kömək etməkdir».

R.Əliyev deyir ki, ipoteka proqramının daha çox ilkin bazara yönləndirilməsi (mənzillərin birbaşa tikinti şirkətlərindən alınması) tikinti sektoruna əlavə dəstək verə bilər: «Bu halda ipoteka proqramı üzrə ayrılan pullar iqtisadiyyatın real sektoruna yönəldiləcək. Real sektor isə iş yerləri, vergi ödəmələri və iqtisadi inkişafın mənbəyidir. Onu da qeyd etmək lazımdır ki, ipoteka proqramı çərçivəsində ilkin bazara, yəni yeni tikililərin alınmasına yönəldilən vəsaitlərin ən azı 20%-i vergi ödəmələri şəklində dövlət büdcəsinə qayıdacaq».

**Fəxriyyə İKRAMQIZI**

# Torpaq vergisi üzrə daxilolmalar artıb

*Bir neçə gündən sonra torpaq vergisi üzrə hesablamaların vergi orqanlarına təqdim edilməsi müddəti başa çatır*

Vergi qanunvericiliyinə əsasən, hər il may ayının 15-dən gec olmayaraq müəssisə və təşkilatlar illik torpaq vergisini torpaq sahələrinin ölçüsü və torpaq vergisinin dərəcələri üzrə hesablamalı və hesabatları vergi orqanına təqdim etməlidirlər. Torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq, torpaq sahəsinə görə hər il sabit tədiyyə şəklində hesablanır və bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir. Müəssisələrin torpaq vergisi dövlət büdcəsinə, fiziki şəxslərin torpaq vergisi isə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

Son üç ildə torpaq vergisi üzrə daxilolmalar əhəmiyyətli dərəcədə artmışdır. 2012-ci ildə bu vergi növü üzrə dövlət büdcəsinə 30 milyon 596,1 min manat vəsait daxil olmuşdursa, 2013-cü ildə bu göstərici 33 milyon 113,2 min manat, 2014-cü ildə isə 35 milyon 398,1 min manat təşkil etmişdir.

Vergi Məcəlləsinin 206.1-ci maddəsinə görə, torpaq vergisinin dərəcəsi kənd təsərrüfatı torpaqları üzrə 1 şərti bal üçün 0,06 manat müəyyən edilmişdir. Kənd təsərrüfatı torpaqları istisna olmaqla, torpaq sahəsinin hər 100 kvadratmetrinə görə aşağıdakı cədvəldə göstərilən dərəcələr tətbiq olunur:

| Yaşayış məntəqələri | Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar (manatla) | | Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar (manatla) | |
|---|---|---|---|---|
| | 10000 m²-dək olduqda | 10000 m²-dən yuxarı olan hissə üçün | 10000 m²-dək olduqda | 10000 m²-dən yuxarı olan hissə üçün |
| Bakı şəhəri, habelə onun qəsəbə və kəndləri | 8.5 | 20 | 0,6 | 1,2 |
| Gəncə, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonunun qəsəbə və kəndləri | 8 | 16 | 0,5 | 1 |
| Digər şəhərlər və rayon mərkəzləri | 4 | 8 | 0,3 | 0,6 |
| Rayon tabeliyində olan şəhərlər, qəsəbələr və kəndlər | 2 | 4 | 0,1 | 0,2 |

Torpaq vergisi torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyənləşdirilir. Tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafizəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tutulur. Vergi Məcəlləsinin 208.3-cü maddəsinə uyğun olaraq, müvafiq orqanlar tərəfindən fiziki şəxslərə hər il iyulun 1-dək torpaq vergisi hesablanır və avqustun 1-dən gec olmayaraq tədiyyə bildirişləri çatdırılır. Ayrılıqda bir neçə hüquqi və ya fiziki şəxsin mülkiyyətində və ya istifadəsində olan tikililərin altında qalan və ya onlara xidmət üçün ayrılmış torpaq sahələrinə görə vergi onlara məxsus tikili sahələrinə mütənasib qaydada hesablanır.

Vergi Məcəlləsində torpaq vergisindən azadolmalar və güzəştlər də nəzərdə tutulmuşdur. Aşağıda qeyd olunan torpaqlar vergiyə cəlb edilmir:

- yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları;
- dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının və onun qurumlarının, habelə Azərbaycan Respublikası Dövlət Neft Fondunun mülkiyyətində və ya istifadəsində olan torpaqlar;
- istehsal fəaliyyətinə cəlb edilməmiş dövlət, meşə və su fondu torpaqları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus sektorunun altında yerləşən torpaqlar;
- dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaqlar.

Vergi Məcəlləsinin 102.2-ci maddəsində göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği isə 10 manat həcmində azaldılır.

Azərbaycan Respublikası Prezidentinin qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qeydiyyata alındıqları hesabat ilindən başlayaraq sənaye, yaxud texnologiyalar parklarında istifadə etdikləri torpaqlara görə 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar. Bundan başqa, sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru bu parkların ərazisində istifadə etdiyi torpaqlara görə torpaq vergisi ödəməkdən azaddır.

**Rəşad SADIQOV**

# BMT regionlarda sənaye məhəllələrinə dəstək verəcək

BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNIDO) baş katibi Li Yonq bildirib ki,əldə olunmuş razılığa əsasən, inkişaf etmiş sənaye ölkələrinin qabaqcıl texnologiyalarının Azərbaycana gəririlməsi, xarici investorların sənaye müəssisələrinin yenidən qurulması və yeni sənayesi müəssisələrinin yaradılması prosesinə cəlb edilməsi nəzərdə tutulur. Bu məqsədlə xarici ekspertlərdən ibarət missiya Azərbaycanın müxtəlif regionlarında sənayenin vəziyyəti ilə bağlı qiymətləndirmələr apacaq, sənaye şəhərciklərinin və sənaye məhəllələrinin yaradılması imkanları nəzərdən keçiriləcək.

İqtisadiyyat və sənaye naziri Şahin Mustafayevin sözlərinə görə, sənaye sahəsində ixtisaslaşmış beynəlxalq qurum kimi UNIDO ilə əməkdaşlığın dərinləşdirilməsi ölkəmizin sənaye potensialının reallaşmasına öz töhfəsini verə bilər. BMT və digər xarici maliyyə institutları ilə əməkdaşlıq çərçivəsində sənaye parklarının və məhəllələrinin yaradılması, rəqabətqabiliyyətli sənaye istehsalının daha da artırılması istiqamətində tədbirlər davam etdirilir. Gəncəətrafı, eləcə də Şirvan və Siyəzən rayonlarında metallurgiya, tikinti materiallarının, maşın və avadanlıqların istehsalı, kimya sənayesi, əczaçılıq və digər sənaye sahələrinin inkişafı ilə bağlı layihələr həyata keçiriləcək. Mərkəzi Aran iqtisadi rayonunda qablaşdırma sənayesi, tikinti, energetika, kənd təsərrüfatı üçün gübrə və kimya məhsulları, eləcə də avtomobil istehsalı kimi sahələrə prioritet kimi yanaşılır.

«Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı»nda sənayedə rəqabətqabiliyyətliliyin yüksəldilməsi, sənaye müəssisələrinin fəaliyyətinin dəstəklənməsi, sənaye zonaları və klasterlərinin qurulması, kadr potensialı və elmi təminatın gücləndirilməsi kimi tədbirlər nəzərdə tutulur.

Xarici investorların sənayeləşmə prosesində iştirakını təmin etmək və həvəsləndirmək məqsədilə müxtəlif stimullaşdırıcı tədbirlər həyata keçiriləcək. Bura dövlət büdcə vəsaitləri hesabına elektrik enerjisi daxil olmaqla, qaz, su, kanalizasiya və s. zəruri infrastrukturun yaradılmasına çəkilən xərclərin ödənilməsi, nəqliyyat-tranzit və logistika sahəsində güzəştlər,səmərəli gömrük rejimi daxildir.

BMT Azərbaycan iqtisadiyyatının digər sahələrinə də dəstək məqsədilə müxtəlif proqramlara texniki yardım göstərməyi planlaşdırır. 2016-2020-ci illəri əhatə edəcək «Tərəfdaşlıq çərçivəsi»ndə özəl sektorun və qeyri-neft sahələrinin inkişaf etdirilməsi, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, keyfiyyətli səhiyyə, təhsil və sosial müdafiə xidmətlərindən istifadə imkanlarının təmin edilməsi, yoxsulluqla mübarizə və digər prioritetlərin gerçəkləşdirilməsi istiqamətində addımların atılması nəzərdə tutulur. Bundan əlavə, dövlət idarəçiliyinin təkmilləşdirilməsi, müxtəlif biznes və ictimai təşkilatlar vasitəsilə hüquqi yardımın göstərilməsi, biznesin idarə olunmasında müasir üsulların və yeni texnologiyaların tətbiqi, sahibkarlıq sahəsində maarifləndirmə işləri də əməkdaşlığın əhatə dairəsinə daxildir.

**ELBRUS**

# Birinci rübdə ARDNF-nin büdcə gəlirləri 2 milyard 28 milyon manat olub

*Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) bu ilin birinci rübü üzrə büdcə gəlirləri 2 milyard 28 milyon manat, büdcə xərcləri isə 2 milyard 335,6 milyon manat olub.*

Qurumun icraçı direktoru Şahmar Mövsümov bildirib ki, bu ilin yanvar-mart aylarında ARDNF-in neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 1 milyard 938,9 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından gəlirləri 1 milyard 936,3 milyon manat, tranzit gəlirləri isə 2,6 milyon manat təşkil edib. Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlir 89,1 milyon manata bərabər olub. Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı büdcədənkənar gəlirlər 7 milyard 488,7 milyon manat təşkil edib.




Hesabat dövründə Dövlət Neft Fondunun 2015-ci il büdcəsinin icrası çərçivəsində 1 milyard 941,7 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 47,9 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 25,1 milyon manat vəsait ayrılıb. «Bakı-Tbilisi-Qars yeni dəmir yolu» layihəsinin maliyyələşdirilməsinə isə ARDNF-dən 3,9 milyon manat vəsait ayrılıb.

«2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın maliyyələşdirilməsinə 2,7 milyon manat vəsait yönəldilib. «Cənub» qaz dəhlizi layihəsi üzrə isə 307,4 milyon manat vəsait ayrılıb.

Bu ilin yanvar-mart aylarında Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri 6,9 milyon manat təşkil edib. Aprelin 1-nə ARDNF-nin aktivləri ilin əvvəlinə (37.104,1 milyon ABŞ dolları) nisbətən 5,86 faiz azalaraq 34.930,5 milyon ABŞ dollarına bərabər olub.

# İnkişaf modelləri yenidən nəzərdən keçirilir

Mayın 3-də Bakıda Asiya İnkişaf Bankının (AİB) Rəhbərlər Şurasının 48-ci illik toplantısı çərçivəsində «İnkişaf potensialı və inkişaf modellərinin yenidən nəzərdən keçirilməsi» mövzusunda seminar keçirilib.

Azərbaycanın maliyyə naziri Samir Şərifov tədbirdə çıxış edərək seminarın fikir mübadiləsi və bütövlükdə artım modellərinin müzakirəsi baxımından gözəl fürsət olduğunu bildirib. Onun sözlərinə görə, Asiya ölkələrinin iqtisadiyyatları sürətlə inkişaf edir. Son 20 ildə təxminən 6 faizlik illik artım dərəcəsi müşahidə olunur ki, bu da böyük rəqəmdir.

Azərbaycan hökumətinin yeni artım modellərindən istifadə etdiyini vurğulayan nazir «Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyasında əsas prioritet kimi iqtisadiyyatın şaxələndirilməsinin nəzərdə tutulduğunu vurğulayıb: «Biz bu istiqamətdə kifayət qədər uğurlu fəaliyyət göstərmişik. Son üç ildə ümumi daxili məhsulun, o cümlədən sənayenin artımı məhz qeyri-neft sektorunun inkişafı hesabına baş verib».

Azərbaycan hökumətinin neftdən əldə olunan gəlirləri qeyri-neft sektorunun inkişafına yönəltdiyini söyləyən Samir Şərifov bu siyasətin hazırda uğurla davam etdirildiyini söyləyib. Bildirilib ki, Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən məsələlərdən biri də məhz təcrübə mübadiləsidir. O, bu baxımdan Asiya qitəsində olan digər ölkələrin təcrübəsininin öyrənilməsinin əhəmiyyətini vurğulayıb.




Milli iqtisadiyyatların xarici təsirlərə məruz qaldığını, hazırda təbii ehtiyatların qiymətinin dəyişməsi və tükənməsi kimi amillərin də mövcud olduğunu diqqətə çatdıran nazir deyib: «Biz siyasi və makroiqtisadi sabitliyi saxlamalı, şaxələndirməni davam etdirməliyik. Eyni zamanda, biznes sahəsinin özünü doğrultmasını da təmin etməliyik. Kifayət qədər sərmayənin Azərbaycana gətirilməsi və təhsil sahəsinə yatırılmasına çalışırıq. Burada kənd təsərrüfatının inkişaf etdirilməsi də çox vacibdir. Kənd təsərrüfatı iqtisadiyyatın artımında prioritet məsələdir. Neft-kimya resurslarından səmərəli istifadə, turizm və xidmət sənayesinin inkişafı, informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi Azərbaycan hökumətinin yürütdüyü siyasətin prioritet istiqamətlərindəndir».

Toplantıda çıxış edən Çinin maliyyə naziri Lou Jivei diqqətə çatdırıb ki, Asiya dünyanın ən dinamik və çevik regionudur. AİB-in hesablamalarına görə, Asiya ölkələrinin inkişaf edən iqtisadiyyatları bu il ərzində 6,3 faiz artım tempi ilə böyüyəcək. Dünya iqtisadiyyatında Asiyanın rolunun əhəmiyyətini vurğulayan Lou Jivei qitə ölkələrinin Avropa ilə müqayisədə böhrandan daha az zərər gördüklərini bildirib. Qeyd olunub ki, bununla yanaşı, Asiya ölkələrində adambaşına düşən ümumi daxili məhsul o qədər də yüksək deyil. Bunun üçün inkişaf strategiyası təkmilləşdirilməli, yeni modellər araşdırmalıdır. Asiya ölkələri infrastrukturu təkmilləşdirməklə yanaşı, əlaqələrin daha da genişləndirilməsinə nail olmalıdır.

İndoneziyanın maliyyə naziri Bambanq Brodjoneqoro çıxışında iqtisadiyyatın şaxələndirilməsinin vacibliyindən danışıb, dayanıqlı inkişafı təmin etmək üçün daxili istehlakın artırılmasının vacibliyini bildirib. Qeyd edilib ki, dünya böhranından sonra Asiya ölkələri artım tempinə deyil, dayanıqlı inkişafa diqqət yetirməlidir. Daxili istehlak yüksək olanda maliyyə böhranının təsirləri az hiss edilir.

Hindistanın maliyyə naziri Arun Jaitley ölkəsinin infrastrukturun inkişafı üçün böyük addımlar atdığını vurğulayıb. Bildirilib ki, Hindistanda hazırda torpaq islahatları həyata keçirilir: «Bu, çox mürəkkəb prosesdir. Əhalimizin çox olmasına və təxminən 70 faizinin müxtəlif işlərdə çalışmasına baxmayaraq, işçi qüvvəsini daha da artırmaq lazımdır. Hindistanda iqtisadi göstəricilər çox aşağı deyil. Maliyyə bazarı gücləndirilməlidir. Kapital bazarında islahat hökumət üçün vacib məsələdir. Hindistan hökuməti bu problemi aradan qaldırmağa və investisiya mühitini yaxşılaşdırmağa çalışır».

AİB-in prezidenti Takehiko Nakao çıxışında qeyd edib ki, böhrana baxmayaraq, bir sıra ölkələr artım templərini qorumağa müvəffəq olub. O, iqtisadiyyatı gücləndirmək üçün işçi potensialının artırılmasının, maliyyə məhdudiyyətlərinin aradan qaldırılmasının və açıq bazar iqtisadiyyatının əlaqələndirilməsinin vacibliyini bildirib. T.Nakao deyib ki, biz düzgün hesablanmış addımlar atmaqla bütövlükdə regionun inkişafına böyük töhfə verə bilərik.

Xatırladaq ki, Filippinin paytaxtı Manilada yerləşən AİB balanslaşdırılmış iqtisadi artım, ekoloji cəhətdən davamlı artım və regional inteqrasiya yolu ilə Asiyada və Sakit Okean Regionunda yoxsulluğun azaldılması istiqamətində fəaliyyət göstərir. 1966-cı ildə təsis edilmiş AİB 48-i regiondan olmaqla 67 üzv-dövlətə məxsusdur.

Azərbaycan 1999-cu ildən AİB-in üzvüdür. Bu müddət ərzində Birlik Azərbaycan hökumətinə 1,8 mlrd. ABŞ dolları, özəl sektor təşkilatlarına isə 168 mln. dollar həcmində kredit və 18 mln. dollara yaxın qrantlar ayırıb.

AİB-in Azərbaycanla bağlı 2014-2018-cü illər üzrə Ölkə Tərəfdaşlıq Strategiyasında nəqliyyat, enerji və şəhər xidmətləri, eləcə də kiçik və orta biznesin və dövlət-özəl sektor arasında tərəfdaşlığın inkişafına dəstək verilir. Yeni strategiya, həmçinin, regional əməkdaşlıq, idarəetmə, ekoloji sabitlik, iqlim dəyişikliyi və layihələrin daha səmərəli icrasına böyük önəm verir.

2015-ci ilin aprel ayında AİB-in 2015-2017-ci illər üçün Azərbaycan üzrə biznes planı qəbul edilib. Bu müddət ərzində AİB enerji, nəqliyyat, maliyyə, təhsil, su təchizatı və çirkab suların təmizlənməsi və dövlət idarəçiliyi sektorlarının inkişafı üçün Azərbaycana 3,6 mln. ABŞ dolları həcmində qrant və 715 mln. dollar həcmində kredit ayırmağı nəzərdə tutur.

Beləliklə, AİB Rəhbərlər Şurasının illik toplantısının Bakı şəhərində keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi olmaqla yanaşı, ölkəmizin Asiya və Sakit okean regionunda yerləşən dövlətlərlə əməkdaşlığının genişlənməsinə böyük təkan verəcək.

**Fəxriyyə İKRAMQIZI**

## vergi təqvimi

| MAY | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | 1 | 2 | **3** |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | **10** |
| 11 | 12 | 13 | 14 | **15** | 16 | **17** |
| 18 | 19 | **20** | 21 | 22 | 23 | **24** |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | **31** |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 may – «(5)» və «6».
20 may – «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Müəssisələr torpaq sahəsinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən torpaq vergisini illik olaraq hesablayır və may ayının 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.
**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi**: Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Vergitutmada gəlirdən çıxılmayan xərclər

**Əvvəli ötən sayımızda**

Maddə 109.3. ***Əyləncə və yemək xərclərinin (müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş normalar daxilində müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclər, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərcləri istisna olmaqla), habelə işçilərin mənzil və digər sosial xarakterli xərclərinin gəlirdən çıxılmasına yol verilmir.***

- İşçilərin istehsal prosesində iştirakı ilə bilavasitə əlaqədar olmayan istirahətinin təşkili və sağlamlığının mühafizəsi üzrə tədbirlərin keçirilməsi xərcləri;
- Müəssisə işçiləri üçün çəkilən yemək xərcləri və ya köməkçi təsərrüfatlardan müəssisənin yeməkxanası üçün buraxılan məhsullar (işlər, xidmətlər);
- Kollektiv müqaviləyə əsasən (qanunvericilikdə nəzərdə tutulduğundan artıq) işçilərə verilən əlavə məzuniyyətlər üzrə ödənişlər;
- İstirahət və müalicə putyovkaları, səyahət və ekskursiyalar, klub, dərnək və idman bölmələrinin məşğələlərində və mədəni-tamaşa, bədən tərbiyəsi (idman) tədbirlərində iştirak edilməsi üçün xərclər.

Qeyd: *Sahibkarlıq fəaliyyəti əyləncə və ya sosial xarakteri daşıyan vergi ödəyicisinin xərcləri bu cür fəaliyyət çərçivəsində çəkilirsə, müvafiq olaraq əyləncə və sosial xərclər gəlirdən çıxılır (VM. Maddə 109.4);*

Maddə 109.5. ***Əməkhaqqı kartlarının alınmasına çəkilən xərclər istisna olmaqla, fiziki şəxsin fərdi istehlakla və ya əməkhaqqının alınması ilə bağlı olan xərcləri gəlirdən çıxılmır.***

- İşçilərin şəxsi istifadəsi üçün təqdim edilən mallar və abunələr üçün xərclər və ödəmələr;
- Müəssisənin əmək kollektivlərinə səhm kağızları və əmanətləri üzrə ödənilmiş gəlirlər (faizlər, dividendlər);
- Pul və ya digər maddi formada işçilərə və digər fiziki şəxslərə verilən maddi yardımlar (kömək), yaşayış şəraitinin yaxşılaşdırılmasına, ev təsərrüfatının yaradılmasına və başqa fərdi ehtiyaclara verilən faizsiz borclar.

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**Əvvəli ötən sayımızda**

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında (hazırda 111№-li, 112№-li hesablarda) aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davam etdiririk. Göstərilən nümunələr şərti və öyrətmə xarakteri daşıyır. Bu dəfə misal olaraq alınmış avadanlığın müəyyən dövrdən sonra törəmə (təsisçi və ya təsisçilərdən biri olduğu) müəssisəyə pay haqqı kimi verilməsi ilə bağlı əməliyyatlara nəzər yetirəcəyik.

***Misal.*** Müəssisə 2012-ci ilin yanvar ayında faydalı istismar müddəti 5 il və son qalıq dəyəri 800 manat müəyyənləşdirilməklə ƏDV ilə birlikdə 5900 (əsas hissə 5000 manat + ƏDV 900 manat) manat dəyərində avadanlıq almışdır. Avadanlığa azalan qalıq metodu ilə illik 25% amortizasiya dərəcəsi tətbiq olunması barədə qərar verilmişdir. Lakin 25.12.2014-cü il tarixdə həmin avadanlıq müəssisənin (ana müəssisənin) təsisçisi olduğu törəmə müəssisəyə əmlak şəklində pay haqqı (nizamnamə kapitalına qoyuluş) kimi verilmişdir. Avadanlıq təhvil-qəbul aktına əsasən yeni yaradılan hüquqi şəxsə təhvil verilmişdir. Bu əməliyyatlarla bağlı ana (əsas) müəssisədə veriləcək ikili yazılışları təyin etmək tələb olunur.

Əvvəlcə 2012-ci ilin yanvar ayından 25.12.2014-cü il tarixədək olan dövr üzrə hesablanmalı olan (mühasibat uçotu məqsədləri üçün) amortizasiya dəyərini müəyyənləşdirək. Nizamnamə kapitalına qoyulmuş tarixə avadanlıq üzrə yığılmış amortizasiya dəyəri 2429 (1050 + 788 + 591) manat, balans (qalıq) dəyəri isə 2571 (5000 - 2429) manat təşkil edəcəkdir. İkili yazılışlar isə aşağıdakı kimi olacaqdır:

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 31.12.2012 | 202, İstehsal məsrəfləri | 2012-ci ilin yanvar ayından 25.12.2014-cü il tarixədək olan dövr üzrə hesablanmış amortizasiya dəyəri uçota alınır (əgər avadanlıq istehsal məqsədlidirsə) | 2429 | |
| 31.12.2012 | 112, Torpaq, tikili və avadanlıqlar – amortizasiya dəyəri | 2012-ci ilin yanvar ayından 25.12.2014-cü il tarixədək olan dövr üzrə hesablanmış amortizasiya dəyəri uçota alınır (əgər avadanlıq istehsal məqsədlidirsə) | | 2429 |
| 25.12.2014 | 112, Torpaq, tikili və avadanlıqar – amortizasiya dəyəri | Avadanlığın törəmə müəssisəyə verildiyi (balansdan silindiyi) tarixə yığılmış amortizasiya dəyəri uçotdan silinir | 2429 | |
| 25.12.2014 | 111, Torpaq, tikili və avadanlıqlar – ilkin dəyər | Avadanlığın törəmə müəssisəyə verildiyi (balansdan silindiyi) tarixə yığılmış amortizasiya dəyəri uçotdan silinir | | 2429 |
| 25.12.2014 | 181, Uzunmüddətli paylar və səhmlər | Avadanlığın törəmə müəssisəyə verildiyi (balansdan silindiyi) tarixə balans (qalıq) dəyəri uçotdan silinir | 2571 | |
| 25.12.2014 | 111, Torpaq, tikili və avadanlıqlar – ilkin dəyər | Avadanlığın törəmə müəssisəyə verildiyi (balansdan silindiyi) tarixə balans (qalıq) dəyəri uçotdan silinir | | 2571 |
| 30.12.2014 | 181, Uzunmüddətli paylar və səhmlər | Əgər avadanlıq malsatana ƏDV ödəməklə və əvəzləşdirmə hüququ əldə etməklə verilmişdirsə, avadanlığın nizamnamə kapitalına qoyuluş kimi verildiyi tarixdəki qalıq (balans) dəyərinə müvafiq hesablanan ƏDV məbləği qədər müəssisə üzrə ƏDV bəyannaməsində əvəzləşdirilən ƏDV məbləği azaldılır (2571 x 18%) | 462,78 | |
| 30.12.2014 | 521, Vergi öhdəlikləri | Əgər avadanlıq malsatana ƏDV ödəməklə və əvəzləşdirmə hüququ əldə etməklə verilmişdirsə, avadanlığın nizamnamə kapitalına qoyuluş kimi verildiyi tarixdəki qalıq (balans) dəyərinə müvafiq hesablanan ƏDV məbləği qədər müəssisə üzrə ƏDV bəyannaməsində əvəzləşdirilən ƏDV məbləği azaldılır (2571 x 18%) | | 462,78 |

Cədvəldən göründüyü kimi, 462,78 manat məbləğ vergi öhdəliyi kimi qəbul edilmişdir. Bu əməliyyat Vergi Məcəlləsinin 175.6 və 175.4-cü maddələrinin tələblərinə əsasən nəzərə alınıb. Çünki avadanlıq alındığı tarixdə onun 5000 manat ilkin dəyərinin üzərindəki 900 manat ƏDV məbləği ƏDV-yə cəlb olunan əməliyyatlar çərçivəsində həmin dövrdə əvəzləşdirilmişdir. Hazırda isə həmin avadanlıq ƏDV-dən azad olunan əməliyyat çərçivəsində (VM, maddə 164.1.5) təqdim olunduğuna görə, əvvəllər əvəzləşdirilən 900 manat ƏDV-nin məbləği hazırda avadanlığın balansdan silinən qalıq dəyərinə müvafiq hesablanan ƏDV-nin məbləği qədər (2571 manat x 18% = 462,78 manat ƏDV) geriyə, büdcənin xeyrinə bərpa olunmalıdır.

# Əməyin Mühafizəsi Fondu yaradılacaq

Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadənin sözlərinə görə, hazırda müasir iqtisadi reallıqlar və məşğulluq sahəsində meydana çıxan problemlər əmək bazarına nəzarətin yeni mexanizmlərinin hazırlanmasını və tətbiqini zəruri edir. Yeni iş yerlərinin açılması əməyin mühafizəsi ilə bağlı əlavə problemlərin ortaya çıxmasına səbəb olur və bu sahəyə ciddi nəzarət olunmalıdır. Buna görə də ölkəmizdə işsizliklə bağlı Əməyin Mühafizəsi Fondunun yaradılmasına ehtiyac var.

Əmək bazarının tənzimlənməsi və yeni əmək strategiyasının hazırlanmasına Beynəlxalq Əmək Təşkilatı (BƏT) dəstək göstərəcək, qurumun tövsiyələri nəzərə alınacaq. Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib ki, Dövlət Əməyin Mühafizəsi Fondunun yaradılması istiqamətində işlər davam etdirilir və qanunvericilikdə bir sıra məsələlər öz həllini tapdıqdan sonra yeni qurumun fəaliyyətə başlaması mümkün olacaq. Qeyd olunub ki, əmək müqavilələrinin elektron informasiya sisteminə daxil edilməsi işçilərin əmək hüquqlarının qorunmasında mühüm rol oynamaqdadır. Amma bununla yanaşı, əmək bazarında bir sıra problemlər yenə də qalmaqdadır. Bu məqsədlə əməyin mühafizəsi ilə bağlı vətəndaşların əmək hüquqlarının təmin olunmasına dövlət nəzarəti daha da gücləndiriləcək, əmək qanunvericiliyinin təkmilləşdirilməsi, işçilərin əmək hüquqlarının təminatı ilə bağlı əlavə tədbirlər görüləcək. Bu sahədə ən mühüm konsepsiya «Əməyin təhlükəsizliyi və sağlamlaşdırılması üzrə Milli Strategiya»nın hazırlanması olacaq.

*İl ərzində 50 mindən çox xarici ölkə vətəndaşının miqrant kimi qeydə alınması faktı əcnəbilərin 70%-nin qeyri-leqal çalışmağa cəhd göstərdiyini təsdiqləyir*

Bundan başqa, nazirlik tərəfindən irəli sürülən təkliflərə əsasən, 50 nəfərdən artıq işçisi olan bütün işəgötürənlər əməyin mühafizəsi üzrə kiçik bölmə yaratmalı olacaqlar. Həmin xidməti yaratmayan işəgötürənlər və vəzifəli şəxslər isə 1000-2000 manat məbləğində cərimə ediləcəklər. Yeni quruma əmək miqrasiyası sahəsində vəziyyətə nəzarət etmək səlahiyyətlərinin verilməsi də nəzərdə tutulur. Bu sahədə əsas məsələlərdən biri əcnəbi işçi qüvvəsinin məşğulluğuna nəzarət ilə bağlı olacaq.

Dövlət Sosial Müdafiə Fondunun (DSMF) məlumatına əsasən, fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin sayı təxminən 15 min nəfər təşkil edir. Amma il ərzində 50 mindən çox xarici ölkə vətəndaşının miqrant kimi qeydə alınması faktı əcnəbilərin 70%-nin qeyri-leqal çalışmağa cəhd göstərdiyini təsdiqləyir. 2015-ci ildə əmək miqrasiyası sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, idarə edilməsi və tənzimlənməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması da əcnəbi işçi kvotasının sayının azaldılması məqsədi daşıyır. Buna nail olmaq üçün əmək bazarına nəzarət tədbirlərinin əsas istiqamətlərindən biri də xarici miqrantların əməyinin leqallaşdırılmasıdır.

**Elbrus CƏFƏRLİ**

# Dövlət əmlakı idarəçiliyi təkmilləşdirilir

Əmlak Məsələləri Dövlət Komitəsi dövlət əmlakının qorunması və istifadə vəziyyəti ilə əlaqədar hesabatların qəbulu prosedurlarını sadələşdirib və elektronlaşdırıb. Komitənin elektron xidmətlər portalında dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə edilməsi vəziyyəti haqqında xüsusi hesabat formasının elektron qəbulu xidməti fəaliyyət göstərir. Bu xidmət dövlət müəssisə və qurumlarına xüsusi hesabat formalarını artıq elektron şəkildə təqdim etmək imkanı yaradıb.

Komitə tərəfindən ötən il dövlətə məxsus daşınmaz əmlakların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı layihə icra olunub. Xarici ekspertlərlə birgə hazırlanan layihə dövlət əmlakı idarəçiliyi sahəsində mövcud vəziyyətin təhlili, daşınmaz əmlakın optimal istifadəsi, nəzarət və monitorinq məsələləri, yekun nəticələr və tövsiyələri ehtiva edir.

Layihənin yekun hesabatında dövlət əmlakı idarəçiliyi üçün gələcək addımlar barədə tövsiyələr və fəaliyyət planı əksini tapıb. Bu sənədlər özündə idarəetmə modeli, İKT və insan resursları, nəzarət və yoxlama, hesabatvermə və kommunikasiya, sərmayə siyasəti, standartlar və yeni idarəetmə yanaşmaları kimi elementləri birləşdirir.

Dövlət əmlakından səmərəli istifadə olunması və qorunub saxlanılması ilə əlaqədar dövlət müəssisə və təşkilatlarında müasir üsullarla monitorinqlər keçirilir. Müəssisə və təşkilatların özəlləşmədən öncəki vəziyyəti, özəlləşmədən sonrakı fəaliyyəti, müəssisələrin maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məlumatlar analiz edilir və ümumiləşdirilir. Bu məqsədlə 2015-ci ilin ilk rübündə Bakı və regionlarda yerləşən nizamnamə kapitalında dövlətin payı olan səhmdar cəmiyyətlərində ümumilikdə 431 monitorinq keçirilib. Bir sıra müəssisələrdə restrukturizasiya tədbirlərinin həyata keçirilməsi məqsədilə onların maliyyə-təsərrüfat fəaliyyətinin araşdırılması işləri aparılıb.

Dövlət mülkiyyətində olan torpaq sahələrindən əsassız istifadə hallarının müəyyən edilməsi, torpaq qanunvericiliyinə zidd istifadənin qarşısının alınması istiqamətində monitorinqlər aparılır. Belə hallar aşkar olunduqda müvafiq qanunvericiliyə əsasən addımların atılması təmin edilir. Dövlət əmlakından qeyri-qanuni istifadənin qarşısının alınması məqsədilə belə daşınmaz əmlaklara dair icarə müqaviləsinin bağlanması və ya özəlləşdirilməyə cəlb edilməsi istiqamətində tədbirlər görülür. Bununla da istifadəsiz dövlət əmlakından icarə və ya özəlləşmə əsasında dövlət büdcəsinə daxilolmaların təmin edilməsi həyata keçirilir. Bundan əlavə, komitənin SMS xidmətləri vasitəsilə hər ay dövlət əmlakını icarə əsasında istifadə edənlərə icarə haqqı borcu barədə məlumat göndərilir. Eyni zamanda, icarəçilər icarə müqaviləsi kodunu 9193-ə SMS şəklində göndərməklə və ya komitənin elektron xidmətlər vasitəsilə ilə də icarə borcu barədə məlumat əldə edə bilirlər.

Daşınmaz dövlət əmlakı barədə alınmış hesabatların araşdırılması və dövlət əmlakı registrində olan məlumatların dəqiqləşdirilməsi işi davam etdirilir. Bu məqsədlə, 2015-ci il aprelin 1-nə 4 min 800-ə yaxın müəssisə və təşkilatdan daşınmaz dövlət əmlakı barədə yeni qeydiyyat vərəqələri alınıb.

Cari ilin I rübü ərzində dövlət əmlakının registrindən 815 ədəd çıxarış sənədi hazırlanaraq təqdim edilib. Dövlət əmlakının registrində toplanmış məlumatların Dünya Bankının dəstəyi ilə hazırlanan yeni informasiya sisteminə transferi məqsədi ilə hazırlıq işləri davam etdirilir.

beynəlxalq panoram

# Rusiya çinli kreditorların vergi yükünü azaldacaq

*Rusiya hökuməti ikiqat vergiqoymanın aradan qaldırılması haqqında Rusiya-Çin hökumətlərarası sazişə düzəlişlər layihəsini bəyənib.*



Protokola əsasən, müqavilədən faiz şəklində əldə olunan gəlirlərə vergi qoyulması haqqında bir neçə müddəa ləğv edilir. Yeni qaydalara görə, çinli kreditorlar Rusiyadan faiz şəklində əldə etdiyi gəlirdən vergini yalnız Çində ödəyəcək (Rusiya kreditorları isə Çində aldıqları faizdən gəlir vergisini yalnız Rusiyada ödəyəcək) .

Rusiya hökumətinin məlumatında deyilir ki, Avropa Birliyi, ABŞ və digər dövlətlərin Rusiyaya qarşı sanksiyalar tətbiq etdiyi şəraitdə bu protokolun imzalanması Rusiya borcalanlarını Asiya kapitallar bazarına yönəldəcək və kreditlərin cəlb olunması, onlara xidmət göstərilməsi üzrə xərcləri azaldacaq.

İndi Rusiya Maliyyə Nazirliyi Çin tərəfi ilə sazişə dəyişikliklər edilməsi barədə protokol imzalamalıdır. Sonra protokol hər iki ölkənin parlamentləri tərəfindən ratifikasiya edilməlidir.

# Gürcüstanda tikinti biznesi üçün vergi amnistiyasının şərtləri elan edilib

*Maliyyə naziri Nodar Xaduri bildirib ki, müharibə və 2008-ci ildə baş vermiş ümumdünya böhranı üzündən həyata keçirilməsi dayandırılan tikinti layihələri yalnız 2018-ci ilədək bərpa olunduqda və başa çatdırıldıqda cərimələrdən və vergilərdən azad ediləcək. Güzəştlər ƏDV-nin ödənilməsinə aiddir.*

Vergi amnistiyası icraçılara təxminən 200 milyon lari qənaət etmək imkanı yaradacaq. «Centerpoint» tikinti şirkətinin təsisçisinin sözlərinə görə, hazırda tikinti biznesinin iki problemi: dövlət və banklar qarşısında borcları mövcuddur. Hökumətin bu qərarı isə biznes üçün böyük dəstək olacaq.

# Latviyada spirtli içkilərin bahalaşması davam edəcək

*Ölkənin hakim koalisiya partiyaları 1 iyul 2015-ci ildən və sonrakı iki ildə spirtli içkilərin aksiz vergisinin dərəcəsinin artırılması barədə qərarı razılaşdırıblar.*

Ölkənin Baş naziri Laymdota Strauyuma bildirib ki, iyulun 1-dən şərabın, tərkibində 6%-dən çox spirt olan qıcqırmış içkilərin, həmçinin köpüklənən qıcqırmış içkilərin, tərkibində 15%-dək spirt olan yarımfabrikatların aksiz vergisinin dərəcəsi 9,3% artırılacaq. Öz növbəsində tərkibində 6%-dək spirt olan köpüklənməyən qıcqırmış içkilərin aksiz vergisinin dərəcəsi 45,3% aşağı salına bilər.

Tərkibində 15%-dən çox, lakin 22%-dən aşağı spirti olan yarımfabrikatların aksiz vergisinin dərəcəsi 10,4%, spirt və digər spirtli içkilərə 1,7%, pivəyə isə 22,6% artırıla bilər. Hesablamalara əsasən, nəticədə hər il dövlət büdcəsi əlavə 3,34 mln. avro əldə edəcək.

Latviyanın Maliyyə Nazirliyi tünd alkoqollu içkilərə vergini 1%, pivəyə 16%, lakin ölkənin səhiyyə nazirliyi müvafiq olaraq 6% və 36% artırmağı təklif ediblər.



# Avropa İttifaqına inteqrasiya və əməkdaşlıq

*Avropa İttifaqı (Aİ) iqtisadi əməkdaşlığın yeni hüquqi forması kimi meydana çıxmışdır. Birlik rəsmi olaraq müstəqil, lakin bir-biri ilə qarşılıqlı əlaqədə olan üç təşkilatın - Avropa Kömür və Polad Birliyi (1951-ci il), Atom Enerjisi üzrə Avropa Birliyi (Avro-Atom, 1957-ci il) və Avropa İqtisadi Əməkdaşlıq Birliyinin (1957-ci il) birləşməsi nəticəsində təsis olunmuşdur. Rəsmi olaraq 1992-ci ildə Maastrixt Sazişinin imzalanması ilə yaradılmış qurum özündə həm beynəlxalq təşkilatlara, həm də federativ dövlətə xas əlamətləri birləşdirir.*

Avropa İttifaqının hazırda 28 üzvü var. Təşkilatın mənzil-qərargahı Belçikanın paytaxtı Brüssel şəhərində yerləşir.

Aİ-nin missiyası aşağıdakılardır:

- qarşılıqlı ticarətdə rüsumların tam aradan qaldırılması;
- vahid xarici gömrük tariflərinin müəyyən edilməsi;
- bir-biri ilə ticarət əlaqələrində miqdar məhdudiyyətinin aradan qaldırılması;
- vətəndaşların məhsul və kapitalının sərhədlərdən azad hərəkəti;
- vahid ticarət siyasətinin həyata keçirilməsi;
- vahid pul vahidinin (avro) dövriyyəyə buraxılması;
- əhalinin sosial hüquq təminatının unifikasiyası (vahid şəklə salınması);
- vahid patent sisteminin yaradılması və s.

Təşkilatın vəzifələri isə aşağıda qeyd olunmuşdur:

- Avropa xalqlarının sıx ittifaqını yaratmaq;
- daxili sərhədləri olmayan vahid valyuta yaratmaqla uzunmüddətli iqtisadi tərəqqiyə yardım etmək;
- ümumi nailiyyəti mühafizə və inkişaf etdirmək və s.

Azərbaycan Respublikası Vergilər Nazirliyi ilə Avropa İttifaqı arasında sıx əməkdaşlıq əlaqələri qurulmuşdur. Bu əlaqələr Aİ-nin Avropa Qonşuluq Siyasəti, Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti çərçivəsində çox mühüm layihələr üzrə inkişaf etdirilmişdir.

Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti çərçivəsində əməkdaşlıq əlaqələri Müstəqil Dövlətlər Birliyinə (MDB) göstərilən texniki yardım (TACIS), Tvinninq, Texniki Yardım və Məlumat Mübadiləsi (TAIEX) və digər proqramlar üzrə aparılır.

TACIS proqramı Avropa Komissiyası tərəfindən MDB ölkələrində və Monqolustanda demokratik bazar iqtisadiyyatına keçid prosesində xarici və texniki dəstək göstərmək məqsədilə həyata keçirilən proqramdır. 1991-ci ildə başlanmış TACIS proqramı hazırda Şərqi Avropa və Orta Asiyanın 12 ölkəsini (Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna və Özbəkistan) qrantlarla maliyyələşdirilən texniki yardımla əhatə edir.

TACIS proqramı çərçivəsində 2004-2005-ci illərdə Azərbaycanda «Vergi sisteminin müasirləşdirilməsi» layihəsi həyata keçirilmişdir. Layihənin əsas məqsədləri aşağıdakılar olmuşdur:



- vergi orqanları işçilərinin tədrisi;
- Vergilər Nazirliyində informasiya və kommunikasiya texnologiyalarının təkmilləşdirilməsi;
- vergi ödəyicilərinin məlumatlandırılması işinin təkmilləşdirilməsi.

Layihənin reallaşdırılması üçün TACIS proqramı tərəfindən 1,5 milyon avro vəsait ayrılmışdır. İlkin mərhələdə maddi-texniki təchizat və inzibati məsələlər həll olunmuş, texniki tapşırıq üzrə görüləcək işlər bir daha dəqiqləşdirilərək təsdiq edilmişdir.

Vergi orqanları əməkdaşlarının səriştələrinin artırılması layihənin əsas komponenti hesab edilir. Bu məqsədlə vergi orqanları əməkdaşları üçün təlim və tədris işləri ilə bağlı ədəbiyyat və proqramların mövcud vəziyyəti təhlil olunmuşdur. Layihənin işçi qrupu tərəfindən təşkil olunan tədris prosesi çərçivəsində təxminən 60 tədris günü ərzində beynəlxalq və yerli ekspertlərin iştirakı ilə 2000-dən artıq dinləyiciyə treninqlər, o cümlədən təlimçilər üçün sessiyalar keçirilmişdir. Sessiyalarda iştirak etmiş təlimçilər isə nazirliyin əməkdaşları üçün treninqlər keçmişlər. Tədris zamanı əsas mövzular menecment, pedaqoji bacarıqlar, vergi qanunvericiliyi və inzibatçılığı ilə bağlı olmuşdur.

2004-2005-ci illər ərzində «Vergi sisteminin müasirləşdirilməsi» layihəsinin ekspertləri tərəfindən «Vergi Məcəlləsinin tətbiqinə dair tövsiyələr» hazırlanmışdır.

Layihə tərəfindən kompüter şəbəkəsinin yaradılması komponenti üzrə Vergilər Nazirliyinin aparatının yerləşdiyi bina ilə Bakı şəhərində yerləşən və nazirliyin strukturuna daxil olan digər binalar arasında yüksək sürətli optik rabitə əlaqəsi yaratmaq məqsədilə müəyyən işlər görülmüşdür. Bunun üçün ümumi tələbatlar qiymətləndirilmiş, gələcək potensial struktur müəyyən edilmiş, layihənin texniki həlli üsulu qəbul olunmuş, texniki spesifikasiyalar və nümunəvi tender sənədi tərtib edilərək benefisiar və idarəetmə komissiyası tərəfindən təqdim olunmuşdur.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



***Yuxarıdan aşağı:*** 1.Müəssisənin mühasibat uçotu balansının bir hissəsi; 2.Adıgey *(çərkəz)* xalq rəqsi; 3.Adlı-sanlı, ad-sanı ehtiramla çəkilən, adı ilə tanınan; 4.Qanın maye hissəsi; 5.Avropada Volqadan sonra ikinci ən uzun çay; 6.Taxtadan qapı, pəncərə və digər ev əşyaları düzəldən usta; 9.Cəlilabad rayonunda kənd; 13.Abşeron rayonunda qəsəbə; 15.Daşınar əmlakı və ya başqa bir şeyi girov kimi qəbul edib borc pul verən kredit təşkilatı; 16.İlisu kəndində (Qax) Yazlıq dağının üstündə inşa olunmuş müşahidə təyinatlı istehkam. Şamilqala adı ilə də tanınır; 17.Rusiya Federasiyasının Zabaykalsk vilayətində dağ silsiləsi; 18.Septet - Yeddi nəfərdən ibarət ansambl; 20.Ticarətlə məşğul olan adam; 21.İctimai nəqliyyat vasitəsi. **Soldan sağa:** 1.Borc alınmış və ya investisiya edilmiş ümumi məbləğ; 5. Ləzzət, insan duyğularından biri; 7.Azərbaycan sovet şairi, dramaturq və ictimai xadimin adı, «Ana və poçtalyon», «Təbrizim» kimi populyar şeirlərin müəllifi; 8.Məşhur hind aktyoru və prodüseri; 10.1991-ci ildə Xocavənd rayonu yaxınlığında «Mi-8» vertolyotunun erməni hərbi birləşmələri tərəfindən vurulması nəticəsində şəhid olmuş Azərbaycan Respublikasının ilk Baş prokurorunun adı; 11.«İtkin gəlin» filmində (1994) Əfsanə obrazını canlandıran Azərbaycan aktrisasının adı; 12.Avrasiya və Afrikada geniş yayılmış bitki; 14.Alman-skandinav mifologiyasında personaj; 19.Naxçıvan şəhərindən 12 km cənub-şərqində orta əsr şəhəri; 21.Kamerunun cənub-qərbində şəhər; 22.Türk mifologiyasında əfsanəvi xaqan *(xan)*; 23.Rejissor Mayk Cacın çəkdiyi bədii film. Ekranlara 2009-cu ildə çıxıb; 24.Sakit okeanda atoll; 25.Roma katolik kilsəsinin rəhbəri kimi Roma papası ilə hər hansı dövlətdə kilsəni idarə edən hökumət orqanı arasında müqavilə.



Qax rayonunun İlisu kəndində Yazlıq dağının üstündə inşa olunmuş müşahidə təyinatlı istehkam

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Uşkota; 2.İftixar *(Piriyev)*; 3.Ehkam; 4.Menuet; 5.Deizm; 6.«AzərSu»; 9.Akva; 13.Anne; 15.Variant; 16.Malaqa; 17.Durğan; 18.Salair; 20.Taksa; 21.Puatu. **Soldan sağa:** 1.Univermaq; 5.Dva; 7.Katakana; 8.Zirə; 10.Toxum; 11.Eskimos; 12.Orqan; 14.Halva; 19.Altıntu; 21.Parka; 22.Arka; 23.Ağcaqala; 24.«Ana»; 25.Konduktor.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Yunan-Roma güləşi qaydalarında dəyişikliklər edilib




*Dünya Güləş Birliyi yunan-Roma güləşi qaydalarında bəzi dəyişikliklər edib. Bu dəyişikliklər qarşıdakı bir neçə ay ərzində keçiriləcək beynəlxalq yarışlarda sınaqdan keçirildikdən sonra qüvvəyə minəcək.*

Dəyişikliklərə qayda pozuntularına görə cərimələrin artırılması, zonadan kənarlaşdırmaya görə qiymətləndirmənin açıqlanması və məşhur 5 xallıq qiymətləndirmənin bərpa edilməsi daxildir.

Qayda pozuntularına görə edilən dəyişikliklər daha çox diqqəti cəlb edir. Belə ki, əgər əvvəllər ayaqla hərəkətlər, başla zərbə və ya parterdə düzgün oturmamağa görə qayda pozan güləşçiyə sadəcə xəbərdarlıq edilirdisə, yeni qaydalara görə artıq rəqibə əlavə 2 xal da veriləcək. Bu cəza parterdə olarkən «açılmayan» (fəndin icrasına mane olan) güləşçilərə də şamil ediləcək.

Güləşçilərin rəqibi xalçanın kənarına itələyərək xal qazanmağa meyl etməməsi üçün xalçadan kənarlaşdırmaya görə tətbiq olunan cəzalandırma qaydası dəyişdirilib və daha da sərtləşdirilib. Belə ki, yeni qaydaya əsasən rəqibi xalçadan itələyərək kənarlaşdırmağa görə güləşçiyə xal verilməyəcək.

Qolların hərəkətindən asılı olmayaraq, beldən tutma fəndinin icrası güləşçiyə əvvəl 1 xal qazandırırdısa, indi 2 xal qazandıracaq. Beldən tutma fəndinin ardıcıl icrasındakı qiymətləndirmə isə əvvəlki qaydada olduğu kimi saxlanılır.

Dünya Güləş Birliyi güləşə marağın və baxımlılığın daha da artırılması məqsədilə rəqibi böyük amplitudalı fəndlə təhlükəli vəziyyətə salan güləşçinin 5 xalla qiymətləndirilməsi qaydasını da bərpa edib.

Xəbərdarlığa görə diskvalifikasiyaların baş verməməsi üçün yeni qaydalara əsasən passivliyə görə xəbərdarlıq verilməsi ləğv edilib. Yalnız aşkar şəkildə rəqibin qarşısından qaçmaq, xalçadan kənara qaçmaq və digər bu kimi hallarda xəbərdarlıq veriləcək. İlk qayda pozuntusuna görə şifahi xəbərdarlıq, ikinci dəfə isə artıq güləşçiyə ayaq üstə və ya parterdə davam etmək üçün seçim imkanı veriləcək. Bu seçim yalnız böyük yaş qrupuna aiddir. İstənilən passivliyə görə ardıcıl ikinci xəbərdarlıq nəticəsində rəqibə 1 xal verilir və parter vəziyyəti üçün məcburi seçim edilir. Ancaq yeniyetmə və gənclərdə məcburi parter vəziyyəti ləğv edilib. Böyük yaş qrupunda isə parter vəziyyəti ilə bağlı dəyişikliyə 2016-cı ildə keçiriləcək Yay Olimpiya Oyunlarından sonra yenidən baxılacaq.



Yeniyetmə, gənclər və U-23 yaş qrupunda birinci passivliyə görə şifahi xəbərdarlıq, ikinci dəfə rəsmi xəbərdarlıq, üçüncü dəfə isə rəqibə 1 xal verilməsi nəzərdə tutulur. Bundan sonra baş verəcək hər ikinci xəbərdarlıq rəqibə bir xal verilərək qiymətləndiriləcək. Passivliyə görə edilən xəbərdarlıq və rəqibə xal verilməsi üçün görüş dayandırılmayacaq.

Bu dəyişikliklər mayın 6-11-də Qətərin paytaxtı Dohada keçiriləcək böyüklər arasında Asiya çempionatında və mayın 6-8-də Havanada təşkil olunacaq yeniyetmə və gənclərin Pan-Amerika çempionatında qüvvəyə minəcək.

# Ümummilli liderin xatirəsinə həsr olunmuş velosiped yürüşü

**Mayın 3-də Azərbaycan Velosiped İdmanı Federasiyası, Ədliyyə Nazirliyi və «İrəli» İctimai Birliyinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş velosiped yürüşü təşkil olunub. Yürüşdə 100-dən artıq peşəkar və həvəskar velosipedçi iştirak edib. Tədbir Dövlət Bayrağı Meydanından start götürməklə Heydər Əliyev Mərkəzinin qarşısında başa çatıb.**



# Fransada uğurlu nəticə

Fransada təşkil olunan 7 mərhələli «Le Tour de Bretagne» yarışına yekun vurulub. 146 km-lik sonuncu mərhələ də «Synergy Baku» üçün uğurlu nəticə ilə yadda qalıb. Komandamızın üzvü Matey Müqerli məsafəni 3 saat 22 dəqiqə 22 saniyəyə başa vurub və bununla da finiş xəttini 2-ci keçib.

Xatırladaq ki, Matey Müqerli «Le Tour de Bretagne»ın 2-ci mərhələsində qalibiyyət sevinci yaşamış, 5-ci mərhələdə 3-cü olmuşdu. 4-cü mərhələdə isə Yannis Tamuridis 2-ci nəticə göstərmişdi. 7-ci mərhələdə digər təmsilçimiz Dennis van Vinden 8-ci yerə sahib olub.

Beləliklə, 7 mərhələli yarışda 3 dəfə fəxri kürsüyə qalxan Matey Mügerli ümumi təsnifatda 6-ci yeri tutub. Qeyd edək ki, «Le Tour de Bretagne» yarışı «Synergy Baku» üçün mayın 6-10-da keçiriləcək «Tour d'Azerbaidjan» veloyürüşü öncəsi son sınaq xarakteri daşıyırdı.




mozaika

## «ASAN xidmət» Berlin TV kanalında

camiyyat

*Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi Godd Media təşkilatının «Bakı-2015» birinci Avropa Oyunlarına dair təşviqat və məlumatlandırma» layihəsi çərçivəsində Almaniyanın Berlin TV kanalı ölkəmizdə elektron hökumət sahəsində yaradılan səmərəli idarəetmə - «ASAN xidmət» haqqında iki reportaj yayımlayıb.*




Reportajda Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimovun «ASAN xidmət» modelinin unikallığı, vətəndaşlar üçün yaratdığı yüksək xidmət səviyyəsi haqqında fikirləri yer alıb. On dövlət qurumunun göstərdiyi xidməti özündə birləşdirən «ASAN xidmət» mərkəzlərinin imkanlarından vətəndaşlar növbə gözləmədən, istədikləri vaxt asanlıqla yararlana bilirlər.

Qeyd edilir ki, bölgələrdə yaşayan vətəndaşlar üçün mobil «ASAN xidmət» mövcuddur. Lazımi avadanlıqla təchiz olunan «ASAN xidmət»ə məxsus nəqliyyat vasitələri mütəmadi olaraq Azərbaycanın bölgələrində yaşayan sakinlərə xidmət göstərir.

Berlin TV-nin reportajının sonunda növbəti materialın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr ediləcəyi ilə bağlı anons da verilib.

## Dünya okeanı resurslarının dəyəri

maraqlı

Dünya Vəhşi Təbiət Fondu (WWF) Dünya okeanının resurslarının dəyərini minimum 24,2 trilyon dollar həcmində qiymətləndirib. Fondun press-relizində hesablamanın dəqiq olmadığı qeyd edilir. Belə ki, bəzi resursları pul ekvivalentinə çevirmək sadəcə olaraq mümkün deyil.

Okeanlar hər il təxminən 2,5 trilyon dollar həcmində xidmət və məhsul «təqdim edir». Bu vəsait Dünya okeanının ümumi daxili məhsulu kimi götürülərsə, bu halda o, iqtisadiyyatına görə ABŞ, Çin, Yaponiya, Almaniya, Fransa və Böyük Britaniyadan sonra yeddinci yeri tutacaq.

Hazırda Dünya okeanı tullantılar, həddən artıq balıq ovu, bir çox balıq və heyvan növünün yaşayış mühitinin dağıdılması, həmçinin suyunun temperaturunun və turşuluğunun artması səbəbi ilə ağır vəziyyətə düşüb. Bu da mərcanların və midiyaların skeletlərinin dağılmasına səbəb olur. Mütəxəssislərin hesablamalarına görə, okeanın temperaturu hazırkı templərlə artmaqda davam edərsə, məsələn, mərcan rifləri 2050-ci ilədək tamamilə yoxa çıxacaq.



sağlam həyat tərzi

## Acı bibər qara ciyəri fibrozdan qoruyur

Fibroz qara ciyərin birləşdirici toxumasının böyüməsidir. Bu böyümə hüceyrədənkənar matriks (birləşdirici toxumanın əsasıdır) zülallarının həddən artıq yığılması nəticəsində əmələ gəlir. Proses qara ciyərin xroniki xəstəliklərinin əksər tiplərində müşahidə olunur. Acı bibərin tərkibindəki kapsaitsin adlı xüsusi maddə qara ciyəri zədələnməkdən qoruyur. Məhz həmin maddə bibərə acı dad verir.



Avstriyada beynəlxalq konqresdə təqdim olunan tədqiqat zamanı mütəxəssislər təcrübə siçanlarını bir neçə qrupa ayırıblar. Gəmiricilərin bir qrupunun öd yollarını bağlayıblar və nəticədə onlarda öd yığılmağa və qara ciyər fibrozu inkişaf etməyə başlayıb. Sonra siçanlara üç gün ərzində kapsaitsin veriblər.

Gəmiricilərin ikinci qrupuna zəhərli maddə - tetraxlormetan verilib. Təmizləyici vasitələrin tərkibinə daxil olan bu maddə odsöndürmə aşqarıdır. Siçanlara həm zəhərdən əvvəl, həm də onunla birlikdə kapsaitsin veriblər.

Məlum olub ki, kapsaitsin qara ciyər fibrozu ilə bağlı olan ulduzşəkilli hüceyrələrin fəallığını zəiflədir. Bu maddə birinci qrupdakı siçanların qara ciyər toxumalarını qismən bərpa edir, ikinci qrup gəmiricilərdə isə zədələrin əmələ gəlməsinin qarşısını alır. Lakin kapsaitsin qara ciyərində fibroz inkişaf edən siçanları qoruya bilməyib.

Alimlərin fikrincə, bu tədqiqatlar qara ciyər zədələrinin və fibrozunun müalicəsi və profilaktikasında istifadə etmək üçün kapsaitsinin öyrənilməsinin zəruri olduğunu təsdiq edir.

## Ağır yüklər üçün miniatür robotlar

texnologiya

*Stenford Universitetinin alimlərinin hazırladıqları kiçik robotlar öz çəkisindən yüz dəfə ağır yük qaldırıb daşıya bilir.*

Alimlər tədqiqat zamanı kələ-kötür səthlərdə çevik hərəkət etmək vərdişinə malik qekkon kərtənkələlərinin yerdəyişmə tərzini öyrəniblər. Bu kərtənkələlərin pəncələrində ucları haçalanan xeyli miskropik cod tük var. Onlar Van-der-Vaals gücü vasitəsilə faktiki olaraq səthə yapışır. Hazırda eksperimental yolla sübuta yetirilib ki, çəkisi 50 qram olan qekkon kərtənkələləri pəncələrini səthə ilişdirməklə 2 kiloqramadək yük saxlamaq iqtidarındadır.

Robotların hərəkəti əvvəlcə bədənin qabaq, sonra arxa hissəsini hərəkət etdirən, amma səthlə əlaqəsini itirməyən tırtılın hərəkətini xatırladır. Çəkisi 9 qram olan robot yuxarı dırmaşmaq və bir kiloqram yük daşımaq iqtidarındadır. Alimlər çəkisi cəmi 20 milliqram olan və 500 milliqram yük qaldıra bilən robot hazırlamaq üçün mikroskopdan istifadə edirlər. Daha bir robot 12 qramlıq Tugdur. O, öz çəkisindən 2000 dəfə çox yük qaldırır.



**Müdriklər deyib ki...**

***«Harada olursunuz olun, əlinizdəki imkanlarla edə biləcəklərinizi edin».***

***Teodor Ruzvelt (1858-1919)***

